QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 181 (5901) **3 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# 1993-cü il 3 oktyabr

## *İnkişaf, sabitlik və tərəqqinin başlanğıc tarixinə gedən yol*




Səh 2

11

**Azərbaycanda əhalinin siyahıyaalınma prosesi uğurla reallaşır**



5

**"Azərbaycan sosial göstəricilərə görə MDB-də liderdir"**



4

**Düşmənin "Qazax" əlahiddə sərhəd diviziyasına qarşı növbəti təxribatı**



# Prezident İlham Əliyev Rusiyada işgüzar səfərdədir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına işgüzar səfərə gəlib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Krasnodar vilayətinin qubernator müavini Anatoli Voronovski, Soçi şəhərinin meri Aleksey Kopayqorodski və digər rəsmi şəxslər qarşıladılar.

# İspaniya jurnalında Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinə dair məqalə dərc edilib






***İspaniyanın nüfuzlu "Diplomatiya XXI əsr" jurnalında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən, o cümlədən tolerantlıq və mədəniyyətlərarası dialoqun inkişafı sahəsində əvəzolunmaz xidmətlərindən bəhs edən geniş məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, ölkəmizin İspaniya Krallığındakı səfirliyinin təşəbbüsü ilə hazırlanmış məqalədə Azərbaycanda humanizm və xeyirxahlıq rəmzinə çevrilmiş Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın azərbaycançılıq məfkurəsinin təbliğinə, habelə ölkədə sosial rifahın yüksəldilməsinə, elm, təhsil, mədəniyyət, idman sahələrinin inkişafına əhəmiyyətli töhfə verməsindən, onun rəhbərliyi ilə həyata keçirilən çoxsaylı layihələrin milli dəyərlərin qorunmasına və onların ictimai şüurda möhkəmlənməsinə xidmət etməsindən söz açılır.




Məqalədə 2004-cü ildə əsası qoyulmuş və elə o vaxtdan Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun ölkənin inkişafına verdiyi töhfələrdən, çoxsaxəli fəaliyyətindən bəhs olunur. Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, o cümlədən Ermənistanın Azərbaycana qarşı təcavüzkar və işğalçılıq siyasətinin ifşa edilməsi istiqamətində məqsədyönlü və ardıcıl iş aparması xüsusi olaraq vurğulanır.

Fondun dəstəyi ilə hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlərin keçirildiyi, ermənilərin Xocalıda törətdikləri soyqırımı, insanlıq əleyhinə və müharibə cinayətləri barədə məlumatlandırma kampaniyasının uğurla aparıldığı qeyd olunur, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başladılmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırılır.

Qeyd olunur ki, Azərbaycan mədəniyyətinin dünyada təbliğində, mədəniyyətlərarası dialoqun genişləndirilməsində Heydər Əliyev Fondunun BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESKO) ilə əlaqələri xüsusi yer tutur, Azərbaycan-UNESKO əməkdaşlığının yüksələn xətlə inkişaf etməsində Fondun prezidenti Mehriban Əliyevanın səyləri danılmazdır.

Mehriban Əliyevanın bilavasitə təşəbbüsü ilə Heydər Əliyev Fondunun humanitar sahədə digər dövlətlərlə ikitərəfli münasibətlərin dərinləşməsinə, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına xidmət etməsi yüksək qiymətləndirilərək, Fondun bu məqsədlə həyata keçirdiyi layihələr geniş şəkildə işıqlandırılır. Tolerantlıq və dialoq sahəsində görülmüş işlərin nəticəsi olaraq Roma Papası Fransiskin 2016-cı ildə Azərbaycana səfər etdiyi, Müqəddəs Məryəm katolik kilsəsində dua mərasimi zamanı Azərbaycanı "sivilizasiyalar arasında körpü" adlandırdığı xüsusi olaraq vurğulanır.

Nəfis tərtibata çap edilən "Diplomatiya XXI əsr" jurnalı ölkədə böyük oxuyucu kütləsinə və xüsusi nüfuza malik olmaqla yanaşı, İspaniyanın dövlət orqanları, xüsusilə Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyi, bu ölkədəki diplomatik nümayəndəliklər, habelə İspaniya Krallığının Latin Amerikası ölkələrindəki səfirlikləri arasında da geniş yayılır.

# 1993-cü il 3 oktyabr

## İnkişaf, sabitlik və tərəqqinin başlanğıc tarixinə gedən yol

***Tarix sübut edir ki, hər bir xalqın və dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu olmuşdur. Eyni zamanda, Azərbaycan xalqının taleyində, həmçinin, böyük əhəmiyyətə malik elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub: 1993-cü il 3 oktyabr... Xalqımızın özünün gələcək taleyini, müqəddəratını həll etdiyi gün. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı və 98,84 faiz səslə Azərbaycan Prezidenti seçildi.***




Əgər 1993-cü il seçkiləri Azərbaycan dövlətçiliyinin ciddi sınaq mərhələsi idisə, 1998-ci il seçkiləri, artıq formalaşan dövlətimizin imtahanı sayılırdı. Bu seçimi əsaslandırmaq üçün xalqın yüzlərlə, minlərlə arqumenti və məntiqə əsaslanan dəlil-sübutu var idi. Çünki həyata keçirilən islahatlar nəticəsində, "Xalq-Heydər- Heydər-Xalq" ifadəsi Prezident və xalq birliyinin möhtəşəm formuluna çevrilmişdi. Beynəlxalq aləm də əmin idi ki, 1993-cü ilin yayında Azərbaycan xalqını qardaş qırğınından, dövləti isə məhv olmaqdan xilas edən Ümummilli Liderimiz Heydər Əliyev növbəti dəfə Prezident seçiləcək. Həmin dövrdə bəzi qüvvələr müdrik siyasətçinin əleyhinə təbliğat aparırdı. Müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Dahi Öndər Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ancaq növbəti seçkidə də Azərbaycan xalqı ayıq olmalı idi. 1988-1993-cü illərin faciə və gərginliklərini yaşamış hər bir kəs taleyüklü seçim məqamında qətiyyət və siyasi iradə nümayiş etdirdi. Azərbaycan xalqı, 1993-cü ildə olduğu kimi, 1998-ci ildə də düzgün seçim etdi.

"Mən ömrümün qalan hissəsini də, bundan sonra xalqıma həsr edəcəyəm" deyən dahi rəhbər siyasi hakimiyyətə qayıdışından dərhal sonra müstəqilliyimizin qorunub-möhkəmləndirilməsi üçün ən vacib tədbirlərə əl atdı.





### Düşünülmüş siyasətin uğurlu nəticələri

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı, həqiqətən də, çox mürəkkəb və çətin bir şəraitə təsadüf etdi. Yəni həmin dönəmdə müstəqil dövlətçiliyimiz həlledici bir dövrünü yaşayırdı. Amma müdrik rəhbərin vaxtında həyata keçirdiyi strateji inkişaf strategiyası müstəqil dövlətçiliyimizin qorunub-möhkəmlənməsində müstəsna rol oynadı. Bu strateji xəttin əsas istiqamətlərindən biri də vahid komandanlıqdan idarə edilən nizami ordunun yaradılması idi. Axı müstəqilliyimizin ilk illərində Azərbaycan qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı, Dağlıq Qarabağ və ona bitişik ərazilər işğal edilmişdi. Belə çətin şəraitdə, döyüşlər getdiyi bir vaxtda nizami ordunun yaradılması olduqca çətin idi. Amma uzaqgörən siyasətçi, çox qısa vaxt ərzində, bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacardı. Bu gün fəxrlə deyirik ki, müasir müstəqil Azərbaycan, həmçinin, Silahlı Qüvvələrimiz Ulu Öndər Heydər Əliyev dühasının və Onun misilsiz xidmətlərinin bəhrəsidir.

1993-cü ilin 15 iyun günü - tariximizdə Milli Qurtuluş Günü kimi qeyd olunan tarixi gün. Məhz həmin gün ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qədəm qoyan Ulu Öndərimiz öz qayıdışı ilə qurtuluşa nail oldu. Zəngin idarəçilik bacarığı olan dahi dövlət xadimi ölkəmizin bütün sahələrinin inkişaf etdirilməsinə nail oldu, siyasi-iqtisadi münasibətlər sistemində müasir inkişafın bünövrəsini yaratdı. 1994-cü ilin sentyabrında inkişaf etmiş dövlətlərin aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan neft kontraktı imzalandı. Bu hadisə təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət kəsb edən mühüm hadisə idi. Belə mühüm müqavilənin imzalanması, bir tərəfdən, ölkədə yaranmış uzunmüddətli ictimai-siyasi sabitliyin göstəricisi idisə, digər tərəfdən, beynəlxalq aləmdə müstəqil dövlətimizin artan nüfuzu demək idi.

Ümummilli Liderin önəm verdiyi bütün məsələlər yalnız bir məqsədə - gənc müstəqil dövlətin hərtərəfli inkişafının təmin edilməsinə hesablanmışdı. Azərbaycanda, elə bir sahə yox idi ki, diqqətdən kənar qalsın. Aparılan bütün islahatlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı. Xalqımız öz dahi rəhbərinin ətrafında sıx birləşməklə, möhkəm iradə nümayiş etdirdi və bütün sınaqlardan üzüağ çıxmağı bacardı.

Azərbaycan xalqı xoşbəxtdir ki, Ulu Öndərdən başlanılan BÖYÜK YOL bu gün Onun layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Ən başlıcası, Heydər Əliyev irsi, dahi rəhbərin ölməz ideyaları insanların şüuruna möhkəm həkk edilib. Bu gün, hər birimiz yaxşı bilirik ki, Ulu Öndərimizin ideyalarına sadiq olmaqla, müstəqilliyimizin daha da möhkəmlənməsinə dəyərli töhfəmizi əsirgəmirik. Azərbaycan bütün sahələrdə inkişaf edir, beynəlxalq layihələrin iştirakçısıdır, möhkəm siyasi və hüquqi dövlətçilik strategiyasına malikdir.

2016-cı il aprelin əvvəllərində düşmənin cəbhə xəttindəki təxribatlarının qarşısının alınmasında, bir neçə vacib yüksəkliyin işğaldan azad edilməsində Azərbaycan Ordusunun imza atdığı qəhrəmanlıq nümunəsi də, məhz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu strategiyasının müasir dövrdə uğurla inkişaf etdirildiyini sübuta yetirdi. Bu gün Silahlı Qüvvələrimiz döyüş və mənəvi-psixoloji sahədə böyük uğurlara imza atmaqla, müntəzəm keçirilən genişmiqyaslı təlimlərdə qüdrətini gücləndirməklə, regionun ən etibarlı hərbi qüvvəsinə çevrilib.

Bəli, Ümummilli Lider Heydər Əliyevin həyatı və gərgin fəaliyyəti bahasına dünyaya Günəş kimi doğan Azərbaycan, indi beynəlxalq arenada tarixi ənənələrlə müasirliyin ən bariz sintezidir. Bu sintez Ulu Öndər Heydər Əliyev müdrikliyi və xalqın birliyindən yaranıb... Bütün bunlar isə, 1993-cü il 3 oktyabr prezident seçkilərinin nəticəsi kimi qiymətləndirilir.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazasının gücləndirilməsi üçün dövlət səviyyəsində zəruri addımlar atılıb



Oktyabrın 2-də Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov BMT-nin İİV/QİÇS üzrə Birgə Proqramının (UNAIDS) Şərqi Avropa və Mərkəzi Asiya üzrə xüsusi məsləhətçisi Mişel Kazaçkin ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Nazirin müavini Azərbaycanda səhiyyənin inkişafına güclü dövlət dəstəyi göstərildiyini söyləyib. O deyib ki, dövlət başçısı səhiyyənin inkişafını daim diqqət mərkəzində saxlayır. Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazasının gücləndirilməsi üçün dövlət səviyyəsində zəruri addımlar atılıb. Məhz bu dəstəyin nəticəsidir ki, son illər yüzlərlə tibb ocağı tikilib istifadəyə verilib. Bu yöndə işlər uğurla davam edir. Bu il ölkə miqyasında geniş səviyyədə tətbiq olunacaq icbari tibbi sığorta haqqında qonağa məlumat verən Əli Əhmədov qeyd edib ki, icbari tibbi sığortanın tətbiqindən sonra vətəndaşların aldığı səhiyyə xidmətləri də genişlənəcək. Baş Nazirin müavini BMT-nin qeyd olunan istiqamətlərdə fəaliyyətini təqdir edərək, dövlət və vətəndaş cəmiyyətlərinin səyləri nəticəsində bütün dünyada yoxsulluğun və aclığın aradan qaldırılması, ana sağlamlığının yaxşılaşdırılması və uşaq ölümü hallarının azaldılması istiqamətində, malyariya, vərəm, QİÇS və s. kimi xəstəliklərə qarşı mübarizədə müvəffəqiyyətlər əldə olunduğunu bildirib.

Mişel Kazaçkin Azərbaycanda da QİÇS, vərəm və hepatit epidemiyalarına qarşı əhalinin köməyə daha çox ehtiyacı olan təbəqələrinin profilaktika, müalicə və qayğı ilə daha yaxşı təmin olunması istiqamətində həyata keçirilən fəaliyyətlərdən, o cümlədən epidemiyaya nəzarət olunması, qiymətləndirilməsi və ona qarşı tədbirlərin görülməsindən məmnunluğunu ifadə edib.



## Düşmənin "Qazax" əlahiddə sərhəd diviziyasına qarşı növbəti təxribatı

Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam etməkdədir. Dövlət Sərhəd Xidmətindən SİA-ya verilən məlumata görə, bu gün saat 16:55 radələrində Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində təminat yollarının salınması ilə məşğul olan ekskavatorumuz düşmən tərəfindən atəşə tutulub. Nəticədə ekskavatorun sürücüsü mülki şəxs Abışov Səfərəli Ələkbər oğlu güllə yarası alıb.

Hadisə yerində dərhal mümkün tibbi yardım göstərilməklə yaralının təcili təxliyəsi təmin olunub, lakin görülən tədbirlərə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb. Düşmən bölmələrinin atəş nöqtələri cavab atəşilə susdurulub.

## Sergey Lavrov: Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair dialoq hələlik bərpa olunmayıb



***Son vaxtlar qoşunların təmas xəttində vəziyyət sakitdir, insidentlər azdır. Həlak olanların meyitləri dəyişdirilib. Saxlanılan şəxslərin dəyişdirilməsinə hazırlıq görülür. AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bunu "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən bəyan edib.***

Nazir deyib: "ATƏT-in Minsk qrupunun həmsədrləri sıx dostluq şəraitində çalışırlar. Onlar bu il üç dəfə xarici işlər nazirləri ilə görüşüblər, o cümlədən bu ilin aprelində mənim iştirakımla Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə görüş keçirilib. İndi vəziyyət bir il əvvəlkindən sakitdir. Lakin siyasi proses yavaşıyıb və hələlik bu ləngiməni aradan qaldıra bilmirik. Tərəflər yetərincə ciddi bəyanatlar, o cümlədən Qarabağın Ermənistan olması barədə bəyanatlar verirlər. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir".

Rusiya XİN-in ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birgə işlədiyini vurğulayan S.Lavrov deyib: "Bu, az sayda hallardan biridir ki, bizim məsələyə baxışımız tamamilə eynidir, bizim baza sənədlərimiz var. Bizim dəfələrlə müzakirə olunmuş baza prinsiplərimiz var. Bu prinsiplər əsasında məsələnin həllini axtaracağıq. Amma məsələnin həlli birbaşa dialoq yolu ilə tapılmalıdır. Əlaqələr var, lakin nizamlanmaya dair dialoq hələlik bərpa olunmur. Mən burada döyüş əməliyyatlarının yenidən başlanması üçün aşkar təhlükə görmürəm. Biz bunun baş verməməsi üçün hər şeyi edəcəyik".

# "Ulu Öndərin fəaliyyət dövrü tariximizin qızıl səhifələrindəndir"



"3 oktyabr 1993-cü il Azərbaycan tarixində çox önəmli və əhəmiyyətli illərdən biridir. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin 15 iyunda hakimiyyətə gəlişi Azərbaycan tarixinin yeni səhifəsini açdı və Azərbaycanın dövlətçiliyini itirməkdən, Azərbaycanı bölünməkdən, Azərbaycanı digər dövlətlərin təsiri altında düşməkdən xilas etdi. Bu proses getdikcə artıq ölkənin necə bir prezident seçilməsinə ehtiyac yarandığı tələbi cəmiyyətdə çox ciddi şəkildə qaldırıldı". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, avqust ayında əvvəlki prezidentə etimadsızlıq göstərildikdən sonra 1993-cü ilin oktyabrın 3-də keçirilən seçkilərdə seçicilərin 90 faizindən çoxunun səsini toplayaraq Ulu Öndər Azərbaycanın Prezidenti seçildi: "İyun ayından başlanan və dövlətçiliyimizin qorunmasına yönələn siyasət daha ciddi səylə davam etdirilməyə başlandı. Azərbaycanın yüksək dövlət mexanizmi yaradıldı, Azərbaycanda milli maraqlarımızın qorunmasına yönəlik xarici siyasət yeridildi, Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyi prinsipial şəkildə quruldu və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Ordu quruculuğu, neft siyasətinin artıq tamam yeni bir müstəvidə aparılması, sahibkarlığın inkişafına dair bir-birinin ardınca Prezident qərarlarının qəbul edilməsi və s. bu qəbildən olan məsələlərdəndir. Bir sözlə, 3 oktyabr 15 iyunda başlanan prosesin artıq hüquqi cəhətcə təsdiqlənməsi oldu.

Ulu Öndər Heydər Əliyevin dövlət başçısı kimi fəaliyyəti bu gün Azərbaycan tarixinin qızıl səhifələrindəndir. 10 illik Prezidentlik Azərbaycana, dövlətçiliyimizin qorunub saxlanılmasına, müstəqil siyasətimizin qurulmasına, beynəlxalq aləmdə layiqli yerimizin tutulmasına gətirib çıxardı. Ümummilli Liderimizin uğurlu siyasətinin indiki Prezident cənab İlham Əliyev tərəfindən davam etdirilməsi Azərbaycanın 2003-cü ildən bəri uğurlarının artıq bünövrəsini təşkil edir. Cənab Prezident Ulu Öndər tərəfindən başlanan siyasəti uğurla davam etdirir. Azərbaycanın müstəqil daxili, xarici siyasəti var. İslamçılıq Azərbaycan dövlətçiliyinin fəlsəfəsidir və atılan bütün addımlar müstəqilliyimizin qorunmasına, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına, iqtisadiyyatımızın güclənməsinə, gəncliyimizə yaxşı təhsil və iş yeri və s. göstərməsinə gətirib çıxarıb".

## Bakı-Mahaçqala qatarı sadələşdirilmiş gömrük proseduru ilə işləyəcək

Bakı-Mahaçqala qatarı Sankt-Peterburq-Helsinki sürət qatarlarının nümunəsi ilə işləyəcək. AZƏRTAC xəbər verir ki, bu barədə Dağıstanın başçısı Vladimir Vasilyev "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilən XVI iclasında jurnalistlərə bildirib. O deyib ki, Dərbənddən keçəcək Mahaçqala-Bakı qatarının Sankt-Peterburq-Helsinki sürət qatarı kimi sadələşdirilmiş gömrük proseduru ilə sərhədi keçməsi məsələsi müzakirə olunur. V.Vasilyevin fikrincə, bu, qarşılıqlı turist axınının artırılmasına kömək edəcək.



Dağıstanın başçısı əlavə edib ki, bu məsələ Azərbaycan və Rusiyanın müvafiq nazirliklərinin Dərbənddə keçirilən görüşündə müzakirə olunub. O, həmçinin bildirib ki, bir çox müsəlman məbədlərinin yerləşdiyi qədim Dərbənd şəhərinin turizm mərkəzinə çevrilməsi üçün plan hazırlanır.

# İsa Həbibbəyli: “Komitəmizin yaz sessiyasındakı fəaliyyəti uğurlu olub. Komitəmizin üzvləri həmin dövrdə çox məhsuldar işləyiblər”

*Bunu “SƏS” qəzetinə açıqlamasında Milli Məclisin qarşıdan gələn 2019-cu il payız sessiyası ilə bağlı parlamentin Elm və Təhsil Komitəsinin sentyabrın 30-da keçirilən iclasında adıçəkilən komitənin sədri, akademik İsa Həbibbəyli deyib. İ.Həbibbəyli Azərbaycanın son 16 ildə sürətli inkişafı nəticəsində, sosial sahədə irimiqyaslı islahatların aparıldığını bildirb: “Bu gün Azərbaycanda yüksək vətəndaş məmnunluğu yaradan dəyərlər formalaşıb.*



Belə ki, Prezident İlham Əliyev həmişə qəti mövqe və siyasi iradə ortaya qoyaraq, komandasının diqqətini və dövlətin resurslarını ən ümdə məsələlərə yönəldir. Bu məsələlər sırasında sosial sfera, vətəndaşlara qayğı prioritet təşkil edir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır”.

### Minimum əmək haqlarının artırılması aparılan sosial siyasətin məntiqi nəticəsidir

Millət vəkili, onu da vurğulayıb ki, təhsil işçilərinin sosial rifahının yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritetlərindəndir: “Məlum olduğu kimi, iyunun 18-də dövlət başçısının müvafiq sərəncamları ilə minimum əməkhaqqının və müxtəlif kateqoriyalar üzrə əməkhaqlarının sentyabrın 1-dən artırılması Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin parlaq nümunəsidir”.

Akademik qeyd edib ki, Prezidentin “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında”, “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında”, “Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” sərəncamları elm və təhsil sahəsində çalışanların üzərinə böyük məsuliyyət qoyur: “Biz elm və təhsil işçiləri, bundan sonra daha da səylə çalışacağıq ki, Azərbaycan elminin inkişafına öz töhfələrimizi verək”.

### “Xalqımız heç zaman imkan verməz ki, antimilli ünsürlər öz xəyanətkar maraqlarını icra etsinlər”

İ.Həbibbəyli son günlər dövlətin əldə etdiyi və bütün sahələri əhatə edən uğurlarına, eləcə də, Prezident İlham Əliyev tərəfindən reallaşdırılan sosial-iqtisadi islahatlara kölgə salmağa cəhdlər göstərən daxili və xarici düşmənlərin fəaliyyətlərini şərh edərkən deyib ki, xalqımız heç zaman imkan verməz ki, antimilli ünsürlər öz xəyanətkar maraqlarını icra etsinlər: “Sağlam düşüncəli hər bir şəxs, çox yaxşı bilir və xatırlayır ki, 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi, gənc və müstəqil dövlətimizi uçuruma doğru apardı. Bu gün Azərbaycan, bütün mənalarda, sabitlik adası kimi qiymətləndirilir, dünyanın bir çox qlobal məsələlərində ölkəmiz söz sahibinə çevrilib. Belə ki, istər sosial, istər iqtisadiyyat, istər mədəniyyət, istər idman və s. sahələrdə ölkəmiz mərkəz rolunu oynayır. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının müdrik, uzaqgörən, məqsədyönlü və qətiyyətli siyasətinin bariz nəticələridir. Bir zamanlar Azərbaycan məhv olurdu və insanlar xaos və anarxiya burulğanında ölümlə üz-üzə qalmışdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi və hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Əlbəttə ki, xalqımız bu əzaba dözə bilməzdi və dözmədi də. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində, Onu çağıran, Ondan pənah uman xalqımızın siyasi iradəsi sayəsində ölkəmiz məhv olmaqdan qurtuldu. Ona görə də, bu gün hər vəchlə qarayaxma kampaniyaları aparan, xaricdəki erməni lobbisinin qarşısında nökərçilik edən ünsürlər bilməlidirlər ki, Azərbaycan xalqı onları yaxşı tanıyır. Bu gün “biz yenə gələcəyik” deyənlərlə Avropada erməni dəyirmanına su tökənlər arasında heç bir fərq yoxdur, onların ucuz və cılız təfəkkürlərinə əsaslanan dağıdıcılıq maraqları isə gerçəkləşməmiş qalacaq. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir”.

“Bu gün ölkəmizdə xalq - iqtidar vəhdəti elə möhkəm əsaslara söykənib ki, həmin əsaslar sarsılmazlığı ilə yanaşı, həm də bənzərsizdir. Dünyanın heç bir ölkəsində belə birlik və belə dəstək yoxdur. Çünki Prezident İlham Əliyev daim xalqın arasındadır, xalqın içindədir. Onun istər paytaxtda, istərsə də regionlara səfəri zamanı, bilavasitə sadə xalqla təmasa getməsi, problem və qayğıları ilə maraqlanması xalqın öz Prezidentinə olan inamını, etimadını daha da artırır. Əlbəttə ki, Prezident İlham Əliyev Cənabları da öz çıxışlarında vurğulayır ki, O, daim xalqına güvənir. Bax, bu reallıq Azərbaycanımızın daha da güclənməsinə, sarsılmaz təməllərə söykənməsinə kifayət qədər təkan və stimul verməkdədir. Ona görə də, Azərbaycanın əleyhinə fəaliyyət göstərən ünsürlər bilməlidirlər ki, onların çirkin maraqları heç vaxt istədikləri nəticəni verməyəcək. Və müasir Azərbaycan dövləti Prezident İlham Əliyevin Liderliyi ilə daha böyük sabahlara doğru addımlamaqda davam edəcək”.

**RƏFİQƏ HÜSEYNOVA**

# Vüsal Qasımlı: “Azərbaycan sosial göstəricilərə görə MDB-də liderdir”

Azərbaycan sosial göstəricilərə görə MDB-də liderdir. AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 2-də İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Prezident İlham Əliyevin rəhbərliyi ilə cari ildə reallaşdırılan inqilabi sosial islahatlara dair keçirdiyi mətbuat konfransında deyib.

İİTKM tərəfindən hazırlanmış sosial islahatlara həsr olunan videoçarxı təqdim edən V.Qasımlı bildirib ki, əhalinin layiqli həyat şəraitini təmin edən sosial islahatlar aşağı inflyasiya və manatın sabitliyi şəraitində həyata keçirilir: “Sosial islahat paketi minimum əməkhaqqının, minimum pensiyanın, eyni zamanda, təqaüd və müavinətlərin artırılması, o cümlədən, problemli və vaxtı keçmiş kreditlərin geri qaytarılması və restrukturizasiyası kimi önəmli islahat tədbirlərini özündə ehtiva edir. Ümumi olaraq sosial islahat paketi 3,9 milyard manat maliyyə yükü ilə 4,2 milyon nəfəri əhatə edib. Bu il ərzində minimum əməkhaqqı 93 faiz artırılaraq 130 manatdan 250 manata çatdırılıb. İki mərhələli baş tutan bu artımla minimal əməkhaqqı ölkə başçısının cari il fevralın 8-də imzaladığı Sərəncamla 130 manatdan 180 manata çatdırılıb və 600 minədək insanı əhatə edib, iyunun 18-də imzalanan Sərəncamla isə 250 manat səviyyəsinə çatdırılaraq özəl sektorda çalışan 350 min, dövlət sektorunda isə 600 minədək şəxsə aid olub. Hazırda Azərbaycanda minimum əməkhaqqı ölkə üzrə yaşayış minimumunu 40 faiz üstələyir. Nəticədə minimum aylıq əməkhaqqı 130 manatdan 250 manata çatıb. Əməkhaqlarının artımı öz təsirini ölkədə orta aylıq əməkhaqqının da artımına göstərəcək ki, bu da ilin sonuna doğru orta aylıq əməkhaqqının orta hesabla 15 faiz artaraq təqribən 625 manata çatmasına imkan verəcək”.



“Əgər alıcılıq qabiliyyəti paritetinə əsasən hesablasaq Azərbaycanda minimum əməkhaqqının MDB, Gürcüstan və Ukrayna ilə müqayisədə yüksək olduğunu müəyyənləşdirmək olar. Alıcılıq qabiliyyəti paritetinə əsasən hesablanan məzənnə, ABŞ dollarının ABŞ-da alacağı miqdarda məhsulu digər ölkənin bazarında almaq üçün tələb olunan yerli valyuta dəyəridir. Başqa sözlə, ABŞ-da 1 dollara alınan məhsulu yerli bazarda almaq üçün tələb olunan ödənişdir. Azərbaycan üçün bu rəqəm Dünya Bankının 2018-ci il üçün təqdim etdiyi statistika məlumatlarına əsasən 0,42 manatdır. Yəni, ABŞ-da 1 dollara alına biləcək məhsulu Azərbaycanda 0,42 manata (0,25 dollar) almaq mümkündür. Buradan da göründüyü kimi ölkələr üzrə əmək haqları və sosial ödənişlərin nominal olaraq ABŞ dolları ilə ifadəsi müqayisə üçün yetərli deyil. Belə ki, alıcılıq qabiliyyəti pariteti ölkələr üzrə fərqlənir, iki ölkə üzrə eyni miqdarda vəsaitə sahib olan şəxslər alacağı məhsullar eyni miqdarda olmayacaq. Bu da əhalinin yaşayış şəraitinə, sosial rifahına birbaşa təsir edən amillərdəndir. Bu səbəbdən ölkələr üzrə müqayisəli təhlil aparmaq üçün hər bir göstəricini alıcılıq qabiliyyəti paritetinə əsasən beynəlxalq dollar göstəricisi ilə ifadə etdikdən sonra real fərqləri görmək mümkündür”, - deyə o bildirib.

Qeyd edib ki, beynəlxalq dollarla ifadədə Azərbaycan minimum əməkhaqqı səviyyəsinə görə MDB ölkələri arasında 595 beynəlxalq dollar göstəricisi ilə 2-ci yerdə qərarlaşıb: “Bu o deməkdir ki, Azərbaycanda yaşayan və minimum əməkhaqqı alan şəxs ABŞ-da 595 ABŞ dolları məvacib alan şəxslə eyni alıcılıq qabiliyyətinə malikdir. Digər MDB ölkələri ilə müqayisədə Azərbaycanda beynəlxalq dollarla ifadə edilmiş minimum əməkhaqqı Ermənistandan 2,1 dəfə, Qazaxıstandan 1,6 dəfə, Gürcüstan və Rusiyadan isə 1,4 dəfə yüksəkdir”.

Onun sözlərinə görə, Azərbaycanda bu il sentyabrın 1-dən minimum əməkhaqlarının yenidən artırılması orta əməkhaqqına da müsbət təsir göstərərək, orta əməkhaqqının alıcılıq pariteti üzrə məzənnə nəzərə alınmaqla 1540 beynəlxalq dollara çatacağını proqnozlaşdırmağa imkan verir. Bu o deməkdir ki, Azərbaycanda orta əməkhaqqı Ermənistandan 1,6 dəfə (Ermənistan - 960 beynəlxalq dollar), Gürcüstandan 1,1 dəfə (Gürcüstan-1431 beynəlxalq dollar) çox olacaq: “Sosial islahatlar paketinin digər istiqaməti əmək pensiyalarının artırılması ilə bağlıdır. Belə ki, ölkə başçısının Sərəncamı ilə bu ilin birinci rübündə pensiyalar 40 faiz artaraq 116 manatdan 160 manata qaldırılıb. Oktyabrın 1-dən ikinci sosial paket çərçivəsində isə bu göstərici 160 manatdan 200 manata qaldırılaraq 660 min təqaüdçünün sosial rifahının yaxşılaşdırılmasına gətirib çıxaracaq. Ümumilikdə il ərzində əmək pensiyalarının 72 faiz artımı 450 milyon manat maliyyə yükü ilə 750 min nəfəri əhatə etmiş olacaq. Minimal pensiya üzrə yeni göstəricilərə əsasən Azərbaycan MDB məkanında minimal pensiyanın beynəlxalq dollarla ifadəsinə görə 476 beynəlxalq dollarla 1-ci yerdə olacaq. Bu göstərici Ermənistanın minimal pensiya göstəricisindən 3,7 dəfə, Gürcüstanın göstəricisindən 2 dəfə, Rusiyanın göstəricisindən 1,3 dəfə, Qazaxıstanın minimal pensiya göstəricisindən isə 1,1 dəfə çoxdur”.

V.Qasımlı bildirib: “Əməkhaqqı və pensiya göstəricilərinin alıcılıq qabiliyyəti pariteti əsasında müqayisəsi göstərir ki, Azərbaycan MDB-də sosial göstəricilərə görə lider ölkədir. Bu da öz növbəsində ölkədə davamlı iqtisadi inkişaf və əhalinin layiqli həyat səviyyəsi ilə təmin olunması siyasətinin nəticəsidir. Azərbaycanda aparılan bütün islahatlar və onların nəticəsində iqtisadiyyatın artan imkanları əhalinin sosial rifah halının yaxşılaşdırılmasına istiqamətlənir. Çünki ölkə başçısının iqtisadi siyasətinin fövqündə Azərbaycan vətəndaşı dayanır”.

# İlham Əliyev: Vədlərinə və xalqına sadiq lider!

Bu gün müasir Azərbaycan dövləti, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi mütərəqqi dövlətçilik ideyaları, müdrik siyasəti nəticəsində, uğurla inkişaf edir. Bu, bir danılmaz həqiqətdir ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin praqmatik və sistematik şəkildə həyata keçirilməsi nəticəsində, çiçəklənən bir diyara çevrilən Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında özünün dinamik və hərtərəfli mövqeyi ilə seçilir. Ulu Öndərin xalqımıza bəxş etdiyi ən qiymətli töhfə onun milli maraq və mənafeyə hədəflənmiş böyük ideyalarını uğurla həyata keçirən, ümummilli inkişaf konsepsiyasını müvəffəqiyyətlə realizə edən, intensiv sürət və geniş vüsətlə gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Müasir dövrün yeni Lideri olan İlham Əliyevin dövlətimizə rəhbərlik illərində ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələrdə imza atdığı çoxsaylı uğurlar, Azərbaycanın regionda nüfuz, güc sahibinə çevrilməsi, modernləşməsi Ulu Öndər Heydər





**Şirvan Əbilov,**
**Prezident təqaüdçüsü**

Əliyevin uzaqgörənlik nümunəsi olmasının canlı təsdiqidir.

Azərbaycan Prezidenti İlham Əliyev üçüncü dəfə prezident seçilərək, çox dəqiq siyasi ustalıqla, dünyada baş verən bütün prosesləri nəzərə almaqla, ölkəmizin inkişaf hədəflərini dəqiqliyi ilə müəyyən edərək, siyasi fəaliyyətə başladı. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində, Azərbaycan 2018-ci ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Azərbaycanın dünyada mövqeyi onun gündən-günə qüdrətli dövlətə çevrilməsi bir faktdır. Prezidentin siyasi və dövlət xadimi kimi fəaliyyətini qiymətləndirərək, dünyada qəbul olunmuş kəmiyyət və keyfiyyət meyarlarına müraciət edərkən, Onun uğurlu siyasətini əyani formada görmək mümkündür.

### İşsizlik və yoxsulluğa son!

Bu illərdə Prezident İlham Əliyevin sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu siyasət nəticəsində, əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Bu siyasətin mərkəzində isə, Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımından aztəminatlı təbəqəsi, müharibə veteranları (Qarabağ, Əfqanıstan), Çernobıl qəzasının ləğvində iştirak edən və həmin qəza nəticəsində zərər çəkənlər, qaçqın və məcburi köçkünlər, çoxuşaqlı ailələr, tələbələr daim dövlətin diqqət mərkəzindədir.

Son illər ərzində dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev tərəfindən böyük islahatlar həyata keçirilib. Şəhid ailələrinin sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün birdəfəlik müavinətlər, tələbə, magistr təqaüdlərinin artırılması, minimum əməkhaqqının yüksəldilməsi, cəmiyyətimizi narahat edən problemli kreditlərin öz həllini tapması və dövlətimizin başçısının ictimai-siyasi xadimlərlə, gənclərlə, hərbçilərlə, mədəniyyət və incəsənət xadimləri ilə, regionlarda sadə zəhmətkeşlərlə görüşməsi, onların sosial-iqtisadi problemləri ilə maraqlanması, zəlzələdən zərər çəkmiş vətəndaşların evlərinin təmiri və ya yeni evlərlə təmin olunması, ticarət mərkəzində yanğın nəticəsində zərər çəkmiş sahibkarlara dövlətin yardım əlini uzatması və onların bütün zərərlərinin dövlət büdcəsi hesabına ödənilməsi, bir çox fərdi problemlərin yerindəcə öz həllini tapması, Azərbaycan vətəndaşlarının istək və arzularına uyğun olaraq, məsələlərin həlli Azərbaycan dövlətinin vətəndaşına verdiyi dəyərin ən bariz nümunəsidir.

Bu gün Azərbaycanda neft sənayesinin inkişafı real faktdır. Qeyri-neft sektoruna da xüsusi önəm verilməsi vacib məsələyə çevrilmişdir. Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində, bu sektorun potensial imkanları genişlənib, yeni istehsal sahələri yaradılıb, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlib, ixrac qabiliyyəti artıb. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir.

### Azərbaycanın xarici siyasəti artıq dünya birliyində uğurlu siyasət kimi tanınır

Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dayaqlarını möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi. Bunu sübut edən ən böyük amillərdən biri Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi oldu.

Müstəqillik tariximizin ən böyük nailiyyəti olan bu hadisə Azərbaycanda yürüdülən siyasətə və beynəlxalq birliyin Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin, Azərbaycana olan inam və etimadın təzahürüdür. Ölkəmiz nəticə etibarilə bütün regional məsələlərdə əsas oyunçuya çevrilib.

İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində erməni təbliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu problemə yönəldi, Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdi. Dünya birliyi Xocalı soyqırımını tanımağa və təcavüzkarı pisləməyə başladı.

### Azərbaycan öz təşəbbüsləri və layihələri ilə Avropanın enerji xəritəsini dəyişib

Prezident İlham Əliyevin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətini uğurla davam etdirməsi nəticəsində, Azərbaycan bu sahədə əsas oyunçulardan birinə çevrilib. Dövlətimizin başçısının enerji siyasəti ilə bağlı təşəbbüsləri və reallaşan layihələr regional çərçivələrdən çıxaraq, qlobal miqyas alıb. Bir qədər geri qayıdıb tarixə nəzər salmaq lazım gəlir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi başa çatdırıldı. Bununla da, "Əsrin müqaviləsi"ndən sonra Azərbaycana külli miqdarda investisiya axını başladı.

### Hərtərəfli inkişaf strategiyası regionların simasını tanınmaz dərəcədə dəyişdirdi

Prezident İlham Əliyevin rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırdı. Bu gün Azərbaycanın regionları bütün zəruri infrastrukturla təmin olunub və Avropanın şəhər və kəndlərindən heç də geri qalmır. Vaxtilə bölgələrimizdə olan bir çox problemlər öz həllini tapdı. Prezidentin tapşırığına əsasən, Azərbaycan başdan-başa qazlaşdırılır. Artıq ölkə əhalisinin, təxminən, 90 faizə yaxını təbii qazdan istifadə edir. Kəndlərə içməli su xətləri çəkilir, yeni yollar salınır və ya əsaslı təmir olunur. Dövlətimizin başçısının regionlara səfərləri və ictimaiyyətlə görüşləri ənənəvi xarakter alıb. Prezident İlham Əliyev yerlərdə inşa olunan müasir ictimai-sosial obyektlərin, istehsal müəssisələrinin açılışında şəxsən iştirak edir.

Prezidentin çox böyük rəğbətlə qarşılanan təşəbbüslərindən biri də mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin bölgələrdə keçirdikləri qəbullardır. Nazirlər, komitə sədrləri və digər dövlət strukturlarının rəhbərləri yerlərdə əhali ilə görüşür, sakinlərin müraciət və təkliflərini dinləyirlər.

### Azərbaycanda dünya miqyasında ən güclü ordulardan biri formalaşıb

Müharibə şəraitində yaşayan, torpaqları işğal altında olan ölkə üçün ordu quruculuğu həyati əhəmiyyətə malik məsələlərdən biridir. Bunu nəzərə alan Prezident, Ali Baş Komandan İlham Əliyev hakimiyyətinin ilk illərindən müasir silahlarla təchiz olunan, yüksək döyüş qabiliyyətinə malik ordu yaradılması istiqamətində davamlı və qətiyyətli iş aparır.

Bu gün Azərbaycanda dünya miqyasında ən güclü ordulardan biri formalaşıb və bu ordu işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Vaxtilə bütün silahları xaricdən alırdıqsa, indi Azərbaycan özü müasir silah və texnika istehsal edir. Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin yaradılması bu istiqamətdə atılmış ən önəmli addımlardan biridir.

Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş aprel döyüşlərində qəhrəman ordumuz, Ermənistanın təxribatına cavab olaraq, keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə, 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək, böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da, Cocuq Mərcanlı təhlükəsizliyinin təmin edilməsi oldu. Prezidentin Sərəncamına əsasən, Cocuq Mərcanlıda qısa müddətdə yeni qəsəbə salındı və ilk mərhələdə oraya 60 ailə köçürüldü. Bu hadisə "Böyük Qayıdış"ın başlanğıcı kimi qiymətləndirilir.

### Uğurlu sosial siyasətin əsasında Azərbaycan vətəndaşı dayanır

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən Onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, insanların müasir səhiyyə xidmətləri ilə təmin olunması istiqamətində ardıcıl addımlar atılır. Son 14 ildə ölkədə minlərlə məktəb binası tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb, dörd mindən çox məktəb kompüter avadanlığı ilə təmin edilib.

Ölkədə səhiyyə islahatları da uğurla reallaşır. Bu gün təkcə paytaxtda deyil, bölgələrdə də müasir və ən qabaqcıl tibb avadanlığı ilə təchiz olunmuş müalicə-diaqnostika mərkəzləri, xəstəxanalar tikilib, mövcud səhiyyə ocaqları əsaslı şəkildə yenidən qurulub, bölgə sakinləri birbaşa yerlərdə müalicə olunmaq imkanı qazanıb. Bir sözlə, Prezident İlham Əliyev verdiyi vədlərinə və xalqına sadiq liderdir!.

# Heydər Əliyevi inkar edən heç bir qüvvə, nə hakimiyyətə gələ, nə də vətənə və xalqa xeyir verə bilməz




***Xalqımızın xilaskarı, Ulu Öndər Heydər Əliyev, yeni müstəqil Azərbaycan dövlətinin banisi olmaqla, nəinki Azərbaycan, türk, müsəlman dünyasına, hətta beynəlxalq aləmdə belə, sülhsevər xalqlar dünyasına nur saçan Azərbaycandan doğan bir Günəşdir! O, kompüter sürəti ilə çalışmış, illəri günlərə çevirmiş, xalqımızın bir millət kimi formalaşmasında, dövlətçiliyimizin yenidən qurulub-yaradılmasında, möhkəmləndirilməsində və inkişaf etdirilməsində adi insan təfəkkürünə sığmayan dərəcədə böyük işlər görmüş və xalqımızın XX əsrdən sonrakı taleyini artıq həll etmişdir...***

### Heydər Əliyev siyasi kursu Azərbaycan dövlət müstəqilliyinin qarantıdır!

Vətənini, xalqını sonsuz məhəbbətlə sevən, -"Vətənə məhəbbət, xalqa məhəbbət mənim qanımdadır, beynimdədir, bütün varlığımdadır. Heç kim, heç nə, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz" - deyən, fitri istedada malik dahi şəxsiyyət Ümummilli Lider Heydər Əliyevi sevməmək, onu inkar etmək vətənə xəyanətdən başqa bir şey deyildir.

**Vətən eşqi ilə döyünən ürək,**
**Vətən naminə də qorunsun gərək!**
**Elə ürəkləri qorumayan kəs,**
**O özü xalqına düşməndir demək!**

Təsadüfi deyildir ki, "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim"deyən, vətənpərvərliyi ilə xalqın rəğbətini qazanan, böyük Xalq şairi Məmməd Araz, heç kimin haqqında deməditi, yazmadığı yüksək fikri Ulu Öndər Heydər Əliyev haqqında demişvə bunu 1994-cü il 4 oktyabr dövlət çevrilişinə cəhd zamanı yazdığı"Bir gecənin əks-sədası" manifestində vətənpərvərcəsinə, böyük iftixar hissi ilə xalqa belə çatdırmışdır:

"O gecə hamının yadındadır: Təşviş dolu, zəlzələ qorxulu gecə!

Prezident Heydər Əliyev respublika radiosu və televiziyası ilə birbaşa xalqa müraciət etdi. Xalq dərin həyəcan içində idi... İkinci müraciətdən sonra artıq bütün xalq ayaq üstə idi!Prezidentin müdrikliyi onda idi ki, o özünü itirmədi, gecikmədi!

Xalqın sərvaxtlığı onda idi ki, O, qəfildən ayağa qalxdı və çevikliyini saxladı. Yoxsa Azərbaycan dövləti, milli müstəqilliyimiz, gələcəyimiz darmadağın ola bilərdi!.. Torpaqlarımızın dizi biryolluq qatlana bilərdi!..

...O gecə Gəncənin, Bakının, eləcə də Azərbaycanın yer üzündə son gecəsi ola bilərdi, əgər xalqımız həmin gecə dərin uçurum qarşısında dayandığını vaxtında görməsəydi, duymasaydı... Hamının qənaəti belə idi. O gecə əbədi gecəyə tuş olmaq bəlasından qurtardı bizi! Nə yaxşı ki, o məqamda zəkamızı itirmədik. Nə yaxşı ki, o məqamda Prezidentin əlində olan qalibiyyət bayrağını xalqımız unutmadı. Xalq sübut elədi ki, yeri gələndə, o, birləşib bir olmağı bacarır!.."

Bəli, Azərbaycan tarixində yeganə haldır ki, öz xalqının və respublikasının varlığına çevrilmiş Ulu Öndər Heydər Əliyev və Onun siyasi kursunu davam etdirən cənab İlham Əliyev, heç bir xarici müdaxilə olmadan, öz xalqının tələbi və iradəsi ilə prezident seçilmişlər.

Xoşbəxt o xalqdır ki, öz liderini özünə prezident seçir. Xarici qüvvələrin dalğasında hakimiyyətə gələn, hər kim olursa-olsun, müstəqil söz sahibi ola bilməz və bir marionetka kimi dövlətinin milli maraqlarını qoruya bilməz. Elələri dövləti müstəmləkəyə, xalqı isə köləliyə aparıb çıxarar.

Xalq öz layiqli liderini seçməklə, həm də beynəlxalq aləmdə özünü təsdiq etmiş olur. Məşhur filosof Q.Qrant yazırdı: "Əgər iş keyfiyyətlərinə görə özünüzdən aşağı adamları işə götürürsünüzsə, onlardan da aşağı olduğunuzu sübut etmiş olursunuz".

Seçilən rəhbərə baxıb, onu seçən xalqa qiymət verirlər. Hər bir xalqı onun liderinə görə tanıyırlar. Məhz ona görə də, əks-qüvvələr həmişə düşmənçilik etdikləri ölkələrin xalqlarına, onların milli maraqlarını qoruya biləcək layiqli liderlərini prezident seçməyə imkan vermirlər. Çalışırlar ki, özlərinin əlaltılarını o xalqa bir lider kimi sırısınlar və onların əli ilə dövləti istədikləri kimi idarə edərək istismar etsinlər. Bir milləti məhv etmək üçün, əvvəl onun liderini gözdən salır, sonra başsız qalmış xalqı pərakəndə halında məhv edirlər. Elə bu səbəbdəndir ki, düşmən qüvvələr vaxtilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməməsinə çalışmış və bu gün də, onun kursunu davam etdirən və dünya siyasət korifeylərinin hesablaşdığı Möhtərəm Prezident İlham Əliyevə qarşı çıxır, hər vasitə ilə Ona mane olmağa çalışırlar...

Ona görə ki, dünyanın heç bir ölkəsində belə bir əmin-amanlıq, təhlükəsiz, dinc yaşayış və həyat tərzi təmin edilməmişdir. Azərbaycan xalqı əmin-amanlıq içində yaşayır. Ölkəmizə gələn bütün turistlər, qonaqlar Bakının gözəlliyinə və müasir abadlığına heyran olurlar. Gecə səhərə kimi dənizkənarı parkda gəzir, əyləncə mərkəzlərində istirahət edir, əylənir və heç bir şeydən şikayət etmirlər. Çünki onlar, qonaqpərvərlik və mehribançılıqdan başqa heç bir təhlükə ilə üzləşmirlər.

Azərbaycanda bütün millətlər mehribançılıq, dostluq və sülh şəraitində yaşayırlar. Azərbaycan beynəlmiləl, tolerant bir ölkə kimi dünya dövlətlərinə bir nümunədir.

Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan müharibə şəraitində ola-ola, "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuş və bütün dünyanın əfsanə adlandırdığı "Bakı-Tbilisi-Ceyhan neft kəməri"ni reallığa çevirərək, dövlət müstəqilliyimizin təməlini qoymuşdur. Hansı ki, belə bir şəraitdə heç bir ölkə Azərbaycana sərmayə qoymaz, müqavilə bağlamazdı. Bunu, düşmən qüvvələrin qucağında sığınacaq tapan və özlərini "vətənpərvər" kimi gənclərə təqdim edənlərdən fərqli olaraq, yaxşı dərk edən düşmənlərimiz, təşvişə düşür və müstəqilliyimizin əbədiliyini sarsıtmaq üçün hər cür vasitəyə əl atırlar.

Məşhur Çin sərkərdəsi və filosofu Sun Tsızının təlimatı üzrə hərəkət edirlər. Belə ki, yıxmaq istədikləri düşmən dövlətin, təlimatda deyildiyi kimi, ən alçaq və murdar insanları ilə əməkdaşlıq edirlər. Onların əli ilə hökumətin fəaliyyətinə hər vasitə ilə mane olmağa çalışır, ölkədə hər nə yaxşı varsa, pis qələmə verir, millətin görkəmli nümayəndələrini hörmətdən salmaq üçün cinayətdə suçlamağa və lazım olan məqamda ictimaiyyət qarşısında rüsvay etməyə çalışırlar. Xüsusi xidmət orqanları tərəfindən idarə olunur və müvafiq təlimatlar üzrə fəaliyyət göstərirlər.

Məşhur Çin sərkərdəsi və filosofu Sun Tsızının təlimatı: "Sizə düşmən olan ölkədə yaxşı nə varsa hamısını məhv edin, düşməninizin görkəmli nümayəndələrini cinayət aləminə cəlb edin. Onları hörmətdən, nüfuzdan salın, lazım olan məqamda ictimaiyyət qarşısında rüsvay edin. Bu işdə, məhz ən alçaq və murdar insanların əməkdaşlığından istifadə edin. Düşmən ölkənin vətəndaşları arasında mübahisə və toqquşmaları qızışdırın. Gəncləri qocaların əleyhinə qaldırın. Hökumətin fəaliyyətinə bütün vasitələrlə mane olun...

Əlbir olanların və məlumatların satın alınması üçün edilən təkliflərə və hədiyyələrə çəkiləcək xərclərə əliaçıq olun. Ümumiyyətlə, bu yolda nə pula, nə də verəcəyiniz vədlərə qənaət etməyin, belə ki, onlardan böyük gəlir götürəcəksiniz".

ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin təsisçisi və birinci direktoru Allen Dallesin dediklərindən: "Orada (düşmən dövlətdə) xaos yaratmaqla, biz hiss olunmadan onların dəyərlərini saxta dəyərlərlə dəyişərik və onları bu saxta dəyərlərə inanmağa məcbur edərik. Necə? Biz öz həmfikirlərimizi taparıq... Düşmən dövlətin özündə müttəfiqlərimizi və köməkçilərimizi taparıq. Bunlar get-gedə xalqın özünü dərk etməsinin, qavramasının geridönməz olaraq birdəfəlik sönməsinə, çox böyük miqyasda ölüm faciəsinə gətirib çıxaracaqdır.

Biz seksə, zorakılığa, sadizmə, satqınlığa pərəstişi - bir sözlə, hər hansı mənəviyyatsızlıq toxumu səpməyə hazır olan, necə deyərlər (belə demək mümkündürsə), rəssamları qaldıracaq və hərtərəfli dəstəkləyəcəyik. Dövlətin idarə olunmasında biz xaos və qarışıqlıq yaradacağıq...

Məmurların axmaqlığına, rüşvətxorluğuna, prinsipsizliyinə biz, hiss olunmadan, lakin aktiv surətdə kömək edəcəyik. Bürokratizm və süründürməçilik yaxşı işə dönəcək...

Saflıq və düzlük keçmişin qalıqlarına dönəcək, gülüş doğuracaq, lağa qoyulacaqdır. Həyasızlıq və sırtıqlıq, yalan və aldatma, sərxoşluq və narkomanlıq, bir-biri qarşısında heyvani qorxu və abırsızlıq, satqınlıq, millətçilik və xalqların düşmənçiliyi- bütün bunları biz cəldliklə və hiss olunmadan yetişdirəcəyik, bütün bunlar məxməri rəngdə çiçək açacaqdır..."

Şərhə ehtiyac yoxdur. Çünki bu təlimatları oxuduqca, daxildə və xaricdə "canfəşanlıq" edən radikalların bütün çıxışları göz qabağında canlanır, sanki nöqtə və vergülünə qədər o təlimatdakı göstərişləri icra edirlər və heç şübhə etmirsən ki, ayrı-ayrı kanallarda çıxış edənlər də, bu radikalların hamısı bir mərkəzdən idarə olunurlar.

Ardı Səh. 8

# Heydər Əliyevi inkar edən heç bir qüvvə, nə hakimiyyətə gələ, nə də vətənə və xalqa xeyir verə bilməz

**Əvvəli-Səh-7**



İndi sual olunur, onlara müxalifət demək olarmı? Əlbəttə, yox! Onlar Vətən deyəndə öz sığınacaq tapdıqları yeri, xalq deyəndə qarınlarını düşünürlər. Şəxsi mənafe və düşmənçilikləri ucbatından düşmənlərin əlində alətə dönüblər. Axı, onların hansı biri Dağlıq Qarabağ vuruşmasında iştirak edib?Xalqı 20 Yanvar qırğınına verəndə, onlar özləri harada idilər? Niyə onlardan heç birinin burnu da belə qanamamışdı. Əlbəttə, indi sığınacaq tapdıqları ağaların tapşırıqları ilə hərəkət edirdilər. İndi isə efirdə ajiotaj yaratmaqla dünya ictimaiyyətini aldadır, daxildə onlardan xəbərsiz olan gəncləri çaşdırmağa çalışır, xalqın adından çıxış edirlər. Hakimiyyətdə olub xalqı səfalət içində qoyub qaçanlar hansı müxalifətçilikdən danışa bilərlər?

Lakin onu qeyd etmək istəyirəm ki, sağlam müxalifətin olması hər bir dövlət üçün vacibdir və demokratikliyinin göstəricisidir. Müxalifət dövlətə düşmən kəsilmək demək deyil. Düşmən kəsilirsə, demək, müxalifət deyil. Ancaq təəssüflər olsun ki, bizdə, belə “müxalifətçilər”, “radikallar”,”özünü siyasi mühacir hesab edən radikal ünsürlər” vardır ki, xaricdəki və daxildəki cəbhədaşları ilə birləşib özlərini xalq adlandırırlar. Öz məqsədli narazılıqlarını xalqın narazılığı kimi qələmə verirlər. Lakin onlar yuxarıda qeyd olunan təlimatlar üzrə fəaliyyət göstərir, müxalifət adını mənimsəmək üçün, ölkə başçısına, dövlət rəmzlərinə, hökumət məmurlarına qarşı qərəzli hücumlar edir, təhqirlər yağdırır, internetdə özlərini, narazı qrupların qəhrəmanına çevirmək istəyirlər. Təəssüflər olsun ki, bu adamlar xarici xüsusi xidmət orqanlarının məxfi əlaltılarına çevrilməklə, Vətənə xəyanət etdiklərinin ya fərqində deyillər, ya da artıq bunu qəbul ediblər!

Bu gün qrant girovuna çevrilənlər, Azərbaycan əleyhinə fəaliyyət göstərən Arif və Leyla Yunusları beynəlxalq aləmdə müdafiə edirlər. Hansılar ki, erməni fondları, Marşal fondu, Soros fondu və s. kimi donorlar vasitəsi ilə xarici dillərdə anti-Azərbaycan təbliğatı aparırlar. Onlar “cəmiyyətin fikri” adı altında, sosial şəbəkə yaradaraq, öz çirkin niyyətlərini həyata keçirirlər. Elə bu ilin əvvəlində (2019) Avropa Parlamentinin binasında “Ermənifobiya: tarix və bu günün yenidən aktuallaşan məsələsi” - mövzusunda tədbir keçirilmişdir. Tədbirin məqsədi guya ermənilərin azərbaycanlılar tərəfindən sıxışdırılması və əzilməsi fikrini aşılamaq olmuşdur. Bu tədbirdə ermənilər yalan və iftiralarına dünya ictimaiyyətini inandırmaq üçün, məhz Leyla Yunusun “Azərbaycanda on yaşında uşaqlar, xristianların Azərbaycanın düşməni və ermənilərin isə, qara geyimli inancsız insanlar olduğuna inanmağa təhrik edilirlər”- dediyi bu fikirlərindən sitat gətirmişlər. Baxın, bunu erməni əsilli Leyla Yunus deyir. Heç ermənipərəst ekspertlər də bu dərəcədə onun qədər israrlı deyillər.

Beləliklə də, Avropada ermənilərə bayraqdarlıq edən erməni əsilli leyla yunusları müdafiə edənlərə nə ad vermək olar? Əlbəttə, onların vətən, xalq haqqında danışmaları - “mübarizə aparmalar” absurddur.

Fəaliyyətlərində şəxsiyyət əleyhinə iftiralara yer verən insanın haqq, ədalət uğrunda “mübarizə” aparması riyakarlıqdır.Hər bir səhvi bağışlamaq olar, vətənə xəyanəti, əsla!

Çox maraqlıdır, böyük şəxsiyyət Heydər Əliyev kimi xilaskarımızı düşmənlər görür, onu ləkələməyə çalışır, bu “vətənpərvər”lər də onlara kömək edirlər.

Lakin öz ədalətliliyi ilə düşmənləri də heyrətə gətirən, xalqın xilaskarı Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə, ermənilərin kürkünə od düşmüşdü. Onların prezidenti Ter-Petrosyan xalqa elan etmişdi ki, “Dağlıq Qarabağ haqqında bütün söhbətləri dayandırın. Gördüyünüz bütün işlər heç bir nəticə verməyəcək. Çünki Heydər Əliyev artıq hakimiyyətə gəlmişdir”.

Doğrudan da, Ulu Öndər Heydər Əliyev uzaqgörən və müdrik siyasətilə Dağlıq Qarabağ probleminin həllində Ter-Petrosyana yalnız bir çıxış yolu qoymuşdu; o, “hə” deməli idi. Bildiyiniz kimi, ermənilər və onların havadarları bu vəziyyətdən çıxış yolunu Ter-Petrosyanın istefasında gördülər və buna da müxalifətin əli ilə nail oldular...

Görürsünüzmü, Ermənistan dövlətinin beynəlxalq aləmdəki nüfuzuna xələl gəlməsin və diplomatik münasibətləri pozulmasın deyə, dövlət başçısı deyəcəyi sözü müxalifətin dili ilə dedi. Milli mənafe naminə müxalifəti də, iqtidarı da bir nöqtəyə vurdular.

Bütün beynəlxalq aləmdə hamıya məlumdur ki, ermənilər Dağlıq Qarabağ probleminin həlli məqamlarında ya görüşü pozurlar, ya istefa verirlər, ya da təsəvvürə gəlməyən hiylələrə əl atırlar. Lakin ermənilərin hiyləsini əvvəlcədən duyan müdrik prezident Ulu Öndər Heydər Əliyev Dağlıq Qarabağ probleminin həllini Ermənistan Respublikasının parlamenti səviyyəsində gündəmə gətirtdirir. Artıq Dağlıq Qarabağ problemi parlamentdə öz həllini tapmalı idi. Lakin burada da Dağlıq Qarabağ probleminin həll olunacağını yəqin edən ermənilər və onların havadarları, dövlət səviyyəsində analoqu olmayan bir terrora əl atdılar. Dağlıq Qarabağ probleminin həllinə yekun qərar verəsi olan səlahiyyətli deputatları, spikerləri başda olmaqla, elə oradaca - parlamentin iclasında güllələdilər!

Beləliklə, yenə də Dağlıq Qarabağ probleminin ədalətli həllinə terrorla imkan vermədilər. Görün, bu ədalətsiz dünyada ədalətsiz ermənilərin nə qədər müdafiəçiləri vardır. Bu, çox şeydən xəbər verir. Belə ki, bu, adi terror deyildi. Buna başqa prizmadan yanaşsaq, görərik ki, bu, Ulu Öndər Heydər Əliyev siyasətinin məğlubedilməzliyinin dünya miqyasındakı möhtəşəm təntənəsi idi. Bəli, bu, Heydər Əliyev siyasi fövqəlgücü, qüdrəti qarşısında məğlub olan, çıxış yolunu yalnız özlərinin intiharında görən düşmənlərin böyük faciəsi idi.

Buradan belə bir nəticə çıxarmaq olar ki, vətəni və xalqı yolunda mübarizədə ermənilərin, nəinki müxalifəti, hətta onların cinayətkar aləmi də bizə qarşı birləşir, bir olurlar və ölümə birgə gedirlər. Daxildə bir-birini didib-yesələr də, bir-biri ilə düşmənçilik etsələr də, xaricdə dostdurlar.Həqiqətdə isə, dünya xalqları onları sevmədikləri kimi, onlar özləri də bir-birini sevmirlər. Onlar öz hiss və məramlarını gizlədən rəzil bir tayfa olaraq, hiyləgər və qorxaqdırlar. Necə ki, erməni şairi Yeğişe Çarens yazır: “Bizdə” (ermənilərdə) riyakarlıq ana bətnində olarkən yaranır”.

Ermənilər tarixinin atası sayılan Movses Xorenatsi hələ V əsrdə öz qəbilədaşları haqqında yazırdı: “Mən ermənilərin daşürəkliliyini və yekəxanalığını göstərmək istəyirəm, onlar həqiqəti inkar etməyi xoşlayan, böyük-böyük danışmağı sevən ikiüzlü, yaltaq və riyakardırlar”.

Ermənilər özləri haqda, hələ qədim zamanlardan pis fikirlər yaradıblar. Yəqin ki, bu, əsassız deyil. Elə olmasaydı, dünya xalqları ayrı-ayrı zamanlarda eyni fikirdə olmazdılar.

Andı pozma, namərdlik, xəyanət, hərislik, satqınlıq, ikiüzlülük, qorxaqlıq, yaltaqlıq bu qəbilənin milli xüsusiyyətlərindəndir. Hiyləgərlikləri olduqca murdar, riyakarlıqları olduqca dözülməz, yaxşılıq qarşısında əclaflıqları təəssüf doğurucudur.

# Heydər Əliyevi inkar edən heç bir qüvvə, nə hakimiyyətə gələ, nə də vətənə və xalqa xeyir verə bilməz

Bunlar, dünya şöhrətli tarixi şəxsiyyətlərin, mütəfəkkirlərin və filosofların fikirlərində də öz təsdiqini tapır. Məsələn, Karl Marks, Fridrix Engels, Əmir Teymur, Aleksandr Düma, Qriboyedov, Puşkin, Mayakovski və b. kimi tarixi şəxsiyyətlərin fikirlərini bunlara misal göstərmək olar.

Onlar tamahkar və acgözdürlər. İstənilən bir cəfəngiyyatı böyütməkdə mahirdirlər. Abırsız dərəcədə intriqa sevən, əclaf və zəlil tayfadırlar. Lakin utanmaq nədir bilməyən bu ermənilər, dünya xalqlarının gözlərində özlərini həmişə sivil, mədəni, yaxşı bir millət obrazı yaratmağa çalışır və çox vaxt da bu maskanı geyməyi məharətlə bacarırlar. Lakin bütün bunlara baxmayaraq, keçmişdə və bu gündə də dünya xalqlarının nifrətini qazanan ermənilərdən, beynəlxalq siyasi qurumlar öz mənafeləri naminə istifadə etmək üçün onların bu yalanlarını üzlərinə vurmurlar. Necə deyərlər, münasibəti saxlamaq üçün yalan danışanın yalanının üstünü açmazlar.

Lakin təəssüflər olsun ki, öz qədim tarixi və milli mənəvi dəyərləri ilə dünya xalqları arasında böyük nüfuz və rəğbət qazanmış Azərbaycan xalqının adını daşıyan belə ünsürlər isə tarixdə insanlıqları və qəhrəmanlıqları ilə ad qoyub getmiş ulu babalarımızın ruhlarına hörmətsizlik edir, millətin düşmənlər tərəfindən aşağılanmasına öz simalarında şərait yaradırlar. Özlərini xalqa vətənpərvər kimi təqdim edən belə "vətənpərvər"lər, hələ bir Azərbaycan bayrağını da peysərlərinin arxasına qoyub, utanmadan efirə çıxır, beynəlxalq aləmdə milləti aşağılamaq üçün hər cür şər-böhtana əl atırlar. Xocalı soyqırımı ilə əlaqədar ermənilərin törətdikləri vəhşilikləri dünya ictimaiyyətinə çatdırmaq üçün erməni səfirliklərinin qarşısında piketlər keçirmək əvəzinə, Azərbaycanın xaricdəki səfirliklərinin qarşısında piketlər keçirir, xidmətində olduğu düşmənlərimizə belə özlərini güldürürlər.

Çünki onlar şəxsi maraqlarından çıxış edir, şəxsi ədavət zəminində "düşmənimin düşməni mənim dostumdur" düşüncəsi ilə, Azərbaycanla düşmənçilik edən dövlət və qurumların əlindən öpüb, onlara biət edirlər. Beləliklə, Azərbaycana düşmənçilik edənlərin hesabına maliyyə vəziyyətlərini yaxşılaşdırırlar. Elə deyilsə, bəs, hansı vəsait hesabına onlar xaricdə oturum əldə edir, sığınacaq tapır, müddətsiz yaşayırlar. Öz vətənlərində guya iş tapa və dolana bilmədiklərini dünyaya car çəkən bu "yazıqlar", nəyin hesabına xaricdə özlərinə şərait yaradır, uşaqlarını oxudur, studiyalar açır, "əməkdaşlar" işə cəlb edir, maliyyə tələb edən bu qədər nanəcib işlər görə bilirlər...

Əlbəttə, belə bir "vətənpərvərliklə" biz, heç vaxt riyakar erməni lobbisinin yalanlarını ifşa edə bilmərik. Saxtakarlıqları və hiyləgərlikləri ilə dünyada məşhur olan erməni fırıldaqçılarına qalib gəlmək üçün, hər şeydən əvvəl, biz gərək, özümüz-özümüzə qalib gələk! İçimizdəki həsəd və paxıllığı, kin-küdurəti çıxarıb düşmənlərə qarşı yönəldək. Şəxsi mənafedən yox, ümumxalq mənafeyindən çıxış edək. Beynəlxalq aləmdə ümummilli birlik yaradaq. Bu birliyin yox dərəcəsində olduğunu görən Ulu Öndər Heydər Əliyev, böyük uzaqgörənliklə, Azərbaycanın dövlət strukturunda heç bir dövlətdə olmayan bir qurum - Diasporla İş üzrə Dövlət Komitəsi yaratdı. O məqsədlə ki, tarixlər boyu Azərbaycan həqiqətlərini təhrif edən, saxtalaşdıran və özünküləşdirən erməni diasporasının bu çirkin əməllərinin qarşısını ala biləcək güclü bir təşkilatımız olsun. Lakin təəssüflər olsun ki, biz hələ də lazım olan nəticəni görmürük. Çünki bəzi diasporalarımız Azərbaycan həqiqətlərini dünyaya yaymaq əvəzinə,"səninmənim" edərək, bir-biriləri ilə çəkişirlər.

Bütün bunların kökündə bir şey dayanır - biz təkəbbürlüyük. Özümüzdən ağıllısını sevmirik. Onları Balaş kimi təndirdə gizlədib, üstündə otururuq. Özümüzdən ağıllısı ilə sağlam rəqabət aparıb inkişaf etmək, onu ötmək əvəzinə, əksinə, onu yıxıb qabağa keçmək istəyirik. İddiamızla bacarığımız tərs mütənasibdir... Tamah ucbatından nəfsimizə qul olub bacarmadığımız işdən yapışır və nəticə etibari ilə vətəni və xalqı geri çəkirik. Düşmənlər isə bu zəifliyimizdən məharətlə istifadə edirlər.

Ona görə də, Vətənini, xalqını sevən hər kəs, bacardığı işdən yapışar!

Makedoniyalı İsgəndərə dedilər: "Sən necə elədin ki, belə şöhrətə və hörmətə layiq oldin?" Dedi ki, "Kimi özümdən ağıllı və yüksəkdə gördüm, ona tabe oldum. Kimi özümlə bərabər gördüm, onunla səmimi və təvazökar oldum. Kimi özümdən aşağı gördüm, ona dayaq oldum, onunla nəzakətlə davrandım".

Bütün bu hisslərdən uzaq olan ey düşmən qucağında özünə sığınacaq tapan"vətənpərvərlər", siz nə vaxta qədər burnunuzdan qabağı görməyəcəksiniz? Şəxsi mənafedən ötrü düşmənə sizi xilas edəndən şikayət edəcəksiniz?! Dosta düşmən, düşmənə dost deyəcəksiniz?! Nə vaxta qədər BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla əlaqədar çıxardığı 4 qətnamənin icra olunmamasına göz yuman ədalətsiz beynəlxalq birliklərdən haqq-ədalət, kömək umacaqsınız?! Düşmənlərin dəyirmanına su töküb, xilaskarımız Ümummilli Liderə, xalqını işıqlı gələcəyə aparan dövlət başçısına qarşı düşmənçilik edəcəksiniz?! Nə vaxta qədər kölgəsinə sığındığınız, üstündə oturduğunuz budağı kəsəcəksiniz?! Qarşınızdakı düşmənə arxa çevirib özümüzə düşmən gözü ilə baxacaqsınız? Nə vaxta qədər?!

Bəs, bu iki əsrlik bir zaman kəsimində, təkrar-təkrar başımıza gətirilən bəlalardan, müsibətlərdən ibrət dərsi almasanız, nəticə çıxarmasanız, ayılmasanız onda, bizə qarşı dünya gücləri ilə birləşən erməni faşizminə qarşı necə qalib gələcəyik?! Bütün bunlar onu göstərir ki, biz hansı məcburiyyətlər qarşısında nələr itirə-itirə bu günə necə gəlib çıxmağımızdan sizin ya xəbəriniz yoxdur, ya da sizin üçün fərqi yoxdur. Keçmişini, tarixini dərindən bilməyən gələcəyi uğrunda mübarizə apara bilməz. Ulu Öndər Heydər Əliyev demişdir: "Ən qədim zamanlardan bu günə qədərki tarixini bilməyən, milli mənsubiyyəti ilə fəxr etməyən, onu dəyərləndirməyi bacarmayan gələcəyi uğrunda mübarizə apara bilməz".

Dağlıq Qarabağ problemi, məlumdur ki, bu gün yaranmayıb. Ermənilərin Dağlıq Qarabağa necə köçürülməsi planının layihəsi hələ XVIII əsrin ortalarında II Yekaterinanın stolunun üstündə müzakirə obyektinə çevrilmişdi və nəticədə, onların indiki Dağlıq Qarabağa köçürülməsi baş tutmuşdu.

Təsadüfi deyil ki, hiyləgər ermənilərin bu faktı sonralar dana biləcəklərini duyan Ulu Öndər Heydər Əliyev, böyük uzaqgörənliklə, 1978-ci ildə ermənilərin özlərinə Ağdərə rayonunun Marquşavan kəndində Dağlıq Qarabağa köçürülmələrinin 150 illiyinə həsr edilmiş xatirə abidəsi ucaltdırmışdır. Təəssüflər olsun ki, indi Dağlıq Qarabağ probleminin həllində böyük bir fakt olan o xatirə abidəsinin izi-tozu da qalmayıb. Ermənilər bu faktı gizlətmək üçün həmin abidəni yerli-dibli yox ediblər. Bilirsinizmi, ermənilərin alçaqlıqları tək bununla bitmir. Utanmaq nədir bilməyən ermənilər, Azərbaycana köçürüldükləri bütün yerlərdə qədim tikililərdən daşları çıxarır, Azərbaycan dilində olan bütün yazıları erməni yazıları ilə əvəz edir, coğrafi adları dəyişir və tarixi saxtalaşdırırlar.

Dünya filosof və mütəfəkkirlərinin təsdiq etdikləri kimi,hörmət gördükləri xalqlara qarşı həmişə xəyanətkar mövqedə olmaq, ermənilərin həyat tərzinə çevrilmişdir.

Yadımdadır, mən hələ 1989-cu ildə Naxçıvanda işləyəndə, bir faktın şahidi oldum. Azərbaycanın Zəngəzur mahalının işğalından qabaqkı dövrün xəritəsini axtarırdım. Düşündüm ki, respublika partiya komitəsinin arxivində qalar. Ora getdim və aşkar etdim ki, 1936-cı ildə həmin xəritənin axırıncı nüsxəsini, partiyanın məxfi arxivindən -"sekretnıy çast" deyilən məxfi otaqdan bir erməni, təhqiqatçı adı ilə qol çəkib götürüb və bir də geri qaytarmayıb. Çox təsirləndim... Onda başa düşdüm ki, bugünkü xəyanətlərinin hazırlığını hələ o vaxtdangörürmüşlər...

Təəssüflər olsun ki, bu gün, ideoloji müharibə gedən bir zamanda belə, o abidənin adını çəkən yoxdur. Gərək ermənilərin Dağlıq Qarabağa köçürülməsini təsdiq edən bu abidəni, ermənilərin alnına, kimliklərini təsdiq edən bir möhür kimi vuran Ulu Öndər Heydər Əliyevi inkar edən hər kəs, kimə xidmət etdiyini dərk etsin və özünün kim olduğunu düşünsün! Bunu ancaq vətən xaini edə bilər!

Bəli, ermənilərə dəstək olan belə "vətənpərvərlər" tarix boyu olub, bu gün də var. Onları Dağlıq Qarabağ yox, millət, dövlət yox, yalnız hakimiyyət, pul, şəxsi mənafe maraqlandırır. Onların davası din davası deyil, un davasıdır. Onların məqsədi, nəyin bahasına olur olsun, yalnız hakimiyyətə gəlmək, bu çirkin məqsədlərinə nail olmaq üçün ağalarının tapşırıqlarını yerinə yetirməkdir. Ağalarının məqsədi isə tək Dağlıq Qarabağı yox, bütün Azərbaycanı ermənilərə verməkdir. Təki Azərbaycan kimi gələcəyi parlaq olan bir müsəlman dövləti dünya tarixinə düşməsin. Lakin onlar unudurlar ki, Ulu Öndər Heydər Əliyevi inkar edən heç bir qüvvə Azərbaycanda nə hakimiyyətə gələ, nə də vətənə və xalqa xeyir verə bilməz. Müdrik Azərbaycan xalqı öz liderini qorumağı bacarır!

Məsələ burasındadır ki, ermənilər bizə qarşı yönəlmiş qüvvələr aysberqin görünən hissəsidir.

Belə ki, Dağlıq Qarabağ probleminin tarixi kökləri çox dərinliklərə gedir. Bu proses, I Pyotrun dövründən, Çar Rusiyası, Qacarlar dövləti dövründən başlanan, Sovet imperiyasından güc alan və bu gün daha da şiddətlənən bir prosesdir. Bu proses, torpaqlarımızın, davamlı olaraq, əldən getməsi ssenarisinin reallaşmasına xidmət edir. Unutmaq lazım deyil ki, bu gün Mərkəzi Kəşfiyyat İdarəsinin Qafqazdakı ən böyük ofisi və analitik iqamətgahı, Bakıda və Tbilisidə deyil, məhz Yerevanda yerləşir.

Ona görə də, Dağlıq Qarabağ probleminin həll olunmamasına və əlavə torpaqlarımızın getməsinə çalışan qüvvələr, get-gedə artmaqda davam edir. Ona görə də, "ATƏT-in bu münaqişənin həlli ilə məşğul olan BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü - Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi xüsusi Minsk Qrupu 27 ildir ki, fəaliyyət göstərir. Lakin heç bir nəticə hasil olunmayıb. Qarabağa dair BMT-nin dörd qətnaməsi var. O sənədlərdə açıq-aydın qeyd olunur ki, işğalçılar qeyd-şərtsiz Azərbaycan torpaqlarını azad etməlidirlər. Hələ də, bu qətnamələr yerinə yetirilməyib. Baxmayaraq ki, ölkə Prezidenti İlham Əliyev bütün beynəlxalq tribunalardan bu barədə bütün dünyaya car çəkir. Lakin BMT Təhlükəsizlik Şurasının başqa dövlətlər üçün verilən qətnamələri, heç mürəkkəbi qurumamış belə, yerinə yetirilir. Bizə gəldikdə isə, 1990-cı illərin əvvəllərində BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş həmin dörd qətnamənin heç biri yerinə yetirilməyib. Çünki Ermənistanın xeyrinə bizə qarşı ikili standart siyasəti aparılır. Vasitəçi dövlətlər, amerikalı səfirlər, ATƏT-in Minsk Qrupu səfirləri və ATƏT sədri işğalçı və işğala məruz qalan tərəfi eyniləşdirən mənasız bəyanatlar və çıxışları ilə kifayətlənir, Ermənistana qarşı heç bir sanksiyaların tətbiq edilməsinə təsir göstərmirlər. Halbuki Ermənistana təzyiq göstərməli, onları Azərbaycan torpaqlarından çıxmağa vadar etməlidirlər.

Azərbaycan, təklənmiş bir müsəlman dövləti olaraq, bu kimi qüvvələrin qarşısında həmişə haqsızlıqla üzləşmiş, bu gün də o haqsızlıq qarşısındadır. Buna baxmayaraq, həmin qüvvələr, Dağlıq Qarabağ probleminin həllindəyegane güc və məqam olan ölkə Prezidenti İlham Əliyev və Onun hakimiyyəti, şər qüvvələri təşvişə saldığından, məşhur Çin sərkərdəsi Sun Tsızının təlimatında deyildiyi kimi, içimizdə olan ən murdar və alçaq insanlardan, sapı özümüzdən olan baltalardan istifadə edərək, ölkədə xaos yaratmaq və hakimiyyəti devirmək məqsədi güdürlər.

Ardı Səh. 10

# Heydər Əliyevi inkar edən heç bir qüvvə, nə hakimiyyətə gələ, nə də vətənə və xalqa xeyir verə bil-

Əvvəli-Səh-9

Lakin onlar heç nəyə nail ola bilməyəcəklər. Çünki onların bu nanəcibliklərini görən müdrik Azərbaycan xalqı xilaskarı Ulu Öndər Heydər Əliyevə və Onun davamçısı Cənab İlham Əliyevə olan sevgi və rəğbəti gündən günə artmaqdadır.

Lakin düşünürəm ki, vaxtilə hakimiyyətdə olub xalqı pis günə qoyanları tanımayan bugünkü gənclər arasında, sanki bir ideoloji boşluq vardır. Bu, böyük təhlükə mənbəyidir. Belə ki, bu gün Azərbaycan gəncliyinin 80 faizini 1988-ci ildən sonra doğulanlar təşkil edir. Dünyada gedən ictimai-siyasi proseslərdən xəbərsiz olan bu gənclər, hardan bilsinlər ki, Ulu Öndər Heydər Əliyev kimlərlə və necə vuruşmuş, hansı çətin yollardan keçmiş, Azərbaycanı hansı ağır vəziyyətlərdən çıxarmış, müstəqilliyini əldə etmiş və bugünkü gözəl, firavan, abad bir müstəqil respublikaya çevirmişdir?! Onlar haradan bilsinlər ki, Azərbaycan 1988-93-cü illər dövrünü, yəni AXCP-Müsavat cütlüyünün yarıtmaz rəhbərliyi dövrünü səfalət içində yaşayıb?! Nə vaxt ki, özünü "vətənpərvər" kimi təqdim edən Kərimov Əli dövlət katibi vəzifəsində işləmişdir. İndi bütün bu biabırçılığa səbəb olduğundan, xəcalət çəkib xalqdan üzr istəmək əvəzinə, mətbuat vasitəsi ilə xalqa özünü "vətənpərvər" kimi göstərir? Xəcalət çəkmirlər ki, onların hakimiyyəti dövründə həmin xalq həftələrlə çörək növbəsində dayanmışdı və küçəyə belə çıxmaqdan qorxurdu. Kimə məxsus olduğu bilinməyən silahlı dəstələr küçələrdə at oynadırdılar. Bu gənclər hardan bilsinlər ki, işıqsız, qazsız xaos içində, müharibə şəraitində ac-yalavac yaşayan xalq, özlərinin yeganə güvənci, arxası bildikləri polislərin, şəxsən mənim yaxamdan yapışıb "bala, qurban olum, biz sizdən heç nə istəmirik, nə su, nə çörək! Bizi bu silahlıların əlindən qurtarın. Biz acından qorxusuz-hürküsüz ölmək istəyirik" - deyə, yalvarırdılar. Qışda soyuqdan isinmək üçün illərlə becərdikləri meyvə ağaclarını belə qırıb yandırırdılar? Körpə uşağa isti çay vermək üçün odun əvəzinə, uşaqlarının kitab-dəftərlərini yandırırdılar?! İndiki gənclər hardan bilsinlər ki, Azərbaycanı xarabazarlığa çevirib, vəzifələrini dondurub qaçan bu yarıtmazlardan sonra bugünkü, dünyanı heyran qoyan Azərbaycanı, onun paytaxtı gözəl Bakını, bu əmin-amanlığı Ulu Öndər Heydər Əliyev yaradıb? Yoxsa bu gənclər elə bilirlər ki, indiki bu gözəl, firavan, abad ölkəmizi elə bu vəziyyətdə ikən onların əlindən "zorla" alıblar? Hələ indi də, utanmazutanmazbağırırlar ki, hakimiyyəti onların əlindən zorla alıblar? Hansı hakimiyyəti zorla alıblar? Bunlar hardan bilsinlər ki, vəzifələrini dondurub hakimiyyəti qoyub qaçandan sonra düşmənlər əhatəsində bölüşdürülmək ərəfəsində qalan Azərbaycanı, onların əlindən



qurtaran, ölü bədənə ruh verən kimi dirildən, Ulu Öndər Heydər Əliyev olmuşdur? Bütün xalqa məlum olan bu aksiomanı danmaq hansı vicdana sığışar? İnsanda abır-həya yaxşı şeydir. O da ki, görünür, bunlarda yoxdur.

Bəli, 1988-ci illərdə həyata göz açan bugünkü gənclərimiz meydan hadisələrini, 1990-cı il qanlı 20 Yanvarı, 1992-93-cü illərdəki AXCP-Müsavat cütlüyünün hakimiyyəti dövrünün biabırçılıqlarını, 1994-cü il dövlət çevrilişinə cəhdi, 1995-ci il vətəndaş müharibəsini görməyiblər. İndi bu gənclər hardan bilsinlər ki, bütün bu hadisələrin baş verməsinə, torpaqlarımızın getməsinə əsas səbəb olan, zəmin yaradan bunlardır? Bizi dünya birliyindən, beynəlxalq dostluq yardımından təcrid edən, 907-ci maddədəki "düzəlişi" bir ləkə kimi millətin adına vurduran AXCP-Müsavat cütlüyünün hakimiyyəti olmuşdur? Hakimiyyətdə olub, hakimiyyəti qoyub qaçan, bu gün də "əziz xalqım", "əziz həmvətənlərim", "ana və bacılarım" deyib, özünü həyasızcasına gənclərə "vətənpərvər" kimi göstərən bu üzdəniraqlar, görəsən, xalqı nə dərəcədə ağılsız hesab edirlər?

Çox düşündürücüdür, ermənilər ayrı-ayrı əsrlərdə doğulsalar da, bir-birilərini görməsələr də, onları milli maraqları birləşdirir. Bir əsr bundan qabaq yaşamış ermənilərin məqsəd və məramlarını bugünkü ermənilər bilir və onu davam etdirirlər. Çünkizamandan və dövrdən asılı olmayaraq, onlar bir mərkəzdən idarə olunurlar və yeri gələndə, amalları uğrunda mübarizədə hər alçaqlığa belə gedirlər. Lakin bizim "vətənpərvərlər" isə vəzifə naminə hər cür alçaqlığa gedirlər! Yaranmış milli-ideoloji boşluq öz işini görür. Bu isə çox təhlükəlidir.

Odur ki, vaxtilə Dağlıq Qarabağda Topxanada armud ağacının kəsilməsinə dözməyən, ayağa qalxan xalq, bu gün onu xilas edən müasir, müstəqil Azərbaycan dövlətini quran və bugünkü əminamanlığa qovuşduran Ümummilli Liderinin, dövlət başçısının, bayrağının, millətinin aşağılanmasına belə dözür? Görünən budur ki, əks təbliğat bizi qabaqlayır.

Düşünürəm: necə olub ki, biz, qanlı əsrləri ötmüşük, keçilməz yolları keçmişik, çox itkilər versək də, bu günə salamat gəlib çıxa bilmişik?..

Nə yaxşı ki, Ulu Tanrı öz mərhəməti ilə, Ulu Öndər Heydər Əliyevi bizə vaxtında bəxş etmişdir. Yoxsa indi Azərbaycandan əsərəlamət yox idi...

Əgər ermənilərin Heydər Əliyevi olsaydı, indi bütün dünya Ermənistan idi...

Əziz qardaş və bacılar, xarici xidmət orqanları tərəfindən idarə olunan bu üzdəniraq vətənpərvərlər və "söyüşçü qruplar"a, "siyasi mühacir"lərə uymaqdan əvvəl fikir verin, görün onlar kimlərin qucağında özlərinə sığınacaq tapıblar?

Görün, o sığınacaq sahiblərinin hansı biri Dağlıq Qarabağ məsələsində bizi dəstəkləyiblər? Onların hansı biri BMT-nin Azərbaycanın xeyrinə çıxardığı dörd qətnamədən birinin belə adını çəkiblər? Niyə milyondan artıq qaçqınlarımızın, əsir düşmüş ana və bacılarımızın taleyi ilə maraqlanmır, erməni əsilli Leyla Yunusova kimilərdən ötrü dövlət səviyyəsində savaşa qalxırlar? Özlərinin əlaltısı olan, cinayət törədib həbsə düşənlərdən ötrü Qərbdə və Avropada, dünya birliklərində məsələmizi qaldırırlar? Sual olunur: xeyir ola, yurd-yuvasından qovulmuş bir milyondan çox qaçqınlarımızın, işgəncə verilən, əsirlikdə olan minlərlə soydaşlarımızın taleyi onları narahat etmir, bizim haqq səsimizə səs vermirlər, lakin dinc-firavan yaşayan xalqımızın taleyi onları "narahat" edir? Guya dövlətimiz tərəfindən Azərbaycan xalqı incidilir və bu, onları narahat edir, dinc, xoşbəxt yaşayan Azərbaycan xalqının müdafiəsinə qalxırlar? Əksinə, onlar Azərbaycan xalqının xoşbəxtliyini həzm edə bilməyən düşmənlərdirlər. İndi özünüz düşünün, bu düşmən qüvvələrə xidmət edən və sizi "xalqım" deyə özlərinin getdiyi xəyanət yoluna dəvət edən bu "siyasi muzdurları" Dağlıq Qarabağ, torpaq, xalq maraqlandırır? Əlbəttə, yox! Onları xarici kəşfiyyat orqanlarının vəd etdikləri xəyali hakimiyyət maraqlandırır. Onlar bu xəyalda ikən düşmənlər də inkişafda olan müsəlman dövlətini yıxmaq xəyalındadırlar.

Burada "Xəyalpərəst hambalın arzuları" hekayəsi yadıma düşür. Uzun müddət müştəri gözləyən acyalavac olan bir hambalı, bəy çağırır, aldığı bir küpə yağı evinə aparmağı tapşırır. Küpə çiynində bəyin evinə gedən hambalın sevindiyindən çiçəyi çırtlayır; yağ küpəsini apara-apara fikirləşir ki, ağam mənə iki şahı pul verəcək. Onu xəcləməyəcək, 4 ədəd yumurta alacağam. Həmin yumurtaları yeməyəcək, qonşunun kürt yatan toyuğunun altına qoyub, ordan dörd cücə əldə edəcəyəm. O cücələri də böyüdəcəyəm, hərəsinin altına 15 yumurta qoyacağam. Beləliklə, 64 toyuğum olacaq. 64 toyuğunhərəsinin altına 15 yumurta qoyacağam, kürt yatacaq,960 toyuğum olacaq. Onların da hərəsinin altına 15 yumurta qoyacağam, beləliklə, yumurtadan toyuq, toyuqdan yumurta ala-ala, hesablayır ki, onun varı-dövləti şahın var-dövlətindən çox olur. Evlənmək qərarına gəlir, hətta şahın qızını belə, bəyənmir. O, bu xəyalda ikən, bəyin evinə pilləkənlərlə qalxmaq məqamında, ayağı ilişib yıxılır, küpə pilləkənlərə dəyib dağılır, yağ tökülür. Bir də ayılır ki, bəy onu təpiyinin altına salıb ayaqlayır. Beləliklə, xəyalpərəst hambalın bütün arzuları puç olur.

İndi bu "vətənpərvər"lər,xəyalpərəst hambalın günündədirlər. Çox çəkməz, onlar da, ağalarının göstərişlərini yerinə yetirə bilmədikləri üçün aldıqları qrant və "siyasi muzdur" pullarının müqabilində öz ağalarının kötəklərini yeyəcəklər...

Söz yox ki, bu siyasi muzdurlar özləri təhlükəli deyillər. İt hürər, karvan keçər. Təhlükəli hürməyən itlərdir! Hürənləri hürdürənlərdir!

Məlum məsələdir ki, bir xalqı məhv etmək üçün o xalqın içindən, məhz belə murdar və alçaq insanların əməkdaşlığından istifadə edir, əvvəlcə onun başçısını, xoşbəxt gələcəyə aparan liderini xalqının gözündən salır, sonra pərakəndə halında başsız qalmış xalqın özünü "parçala, hökm sür!" siyasəti ilə parçalayır və məhv edirlər.

***Ayıq olun!***
***Həsən Şirinov***

# Azərbaycanda əhalinin siyahıyaalınma prosesi uğurla reallaşır

***Müstəqillik dövründə Azərbaycanda sayca üçüncü dəfə olan əhalinin siyahıya alınmasına başlanılıb. Belə ki, müstəqillik illərində bu proses 1999-cu və 2009-cu illərdə həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı il sentyabrın 7-də "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" imzaladığı Fərmana əsasən, bu gün ölkədə əhalinin siyahıya alınmasına start verilib.***



Siyahıya alınmanın keçirilməsi son illərdə insanların yaşayış, mənzil şəraitində çox ciddi dəyişikliklər baş verməsi zərurətindən irəli gəlib. Ölkəmizdə miqrasiya proseslərində də müəyyən dəyişikliklər olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə həyata keçirilən növbəti siyahıyaalınmada iştirak edərək, siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırarkən, qeyd etdiyi kimi, bu, hər bir ölkə üçün çox önəmli tədbirdir: "Azərbaycanda da siyahıyaalınma tədbirləri, müntəzəm olaraq keçirilir. Son dəfə 10 il bundan əvvəl keçirilmişdir. Əlbəttə, bu 10 il ərzində ölkəmizdə çoxlu dəyişikliklər baş vermişdir. İlk növbədə, demoqrafik vəziyyət daha da yaxşılaşdı. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini təntənə ilə qeyd etmişik".

Növbəti dəfə keçirilən siyahıyaalma əhatəliliyinə və miqyasına görə, əvvəlkilərindən keyfiyyətcə fərqlənəcək. Belə ki, 1999-cu ildə keçirilmiş əhalinin ilk siyahıyaalınmasında tərtib edilmiş sorğu vərəqəsində 17 sual və siyahıyaalma vərəqəsində 4 sual olmaqla, cəmi 21 sual qeyd edildirsə, 2009-cu keçirilən siyahıyaalınmada 29 sual sorğu vərəqəsində və 6 sual siyahıyaalma vərəqəsində olmaqla, ümumilikdə, 35 sual öz əksini tapmışdır. Cari siyahıyaalmada isə sorğu vərəqəsində 46 sual, siyahıyaalma vərəqəsində isə 6 sual olmaqla, ümumilikdə, 52 sual öz əksini tapıb. Suallar da əhatəliliyi, miqyasına görə keçirilmiş digər iki siyahıyaalmada tərtib olunmuş suallardan fərqlənir. İlk dəfə olaraq, siyahıyaalınmaya sosial statusla bağlı məsələlər daxil edilib. Siyahıyaalınmada Strateji Yol xəritələrindən irəli gələn məsələlərin monitorinqi, eləcə də, dayanıqlı inkişaf üzrə BMT-nin müvafiq qərarları ilə bağlı suallar da nəzərə alınıb. İlk dəfə olaraq, insanların sağlamlığı, eləcə də, əlilliyi və sağlamlıq imkanlarında məhdudluqla bağlı suallar öz əksini tapıb.

### "SİYAHIYAALINMA BİZƏ DAHA DƏQİQ VƏ MÜFƏSSƏL MƏLUMAT VERƏCƏK"

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafının təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı, hər il sabit şəkildə artaraq, 10 milyonu ötən ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla, demoqrafik inkişafa təkan verir. Dövlət başçısı qeyd edib ki, müstəqillik dövründə Azərbaycanın əhalisi təxminən 3 milyon artmışdır: "Bu da bizim mövqelərimizi möhkəmləndirir, ölkəmizi gücləndirir. Eyni zamanda, qarşımıza yeni çağırışlar çıxır. Siyahıyaalınma bizə daha dəqiq və müfəssəl məlumat verəcək. Baxmayaraq ki, biz ölkəmizdəki prosesləri yaxından izləyirik və bu proseslər müsbət istiqamətdə gedir".

Təbii ki, demoqrafiya sahəsindəki siyasət dövlətimizin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Müasir dövrümüzdə insan inkişafının demoqrafik aspektləri bir sıra amilləri özündə cəmləşdirir. Belə ki, ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin, bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib. Təbii ki, demoqrafiya sahəsində, dövlət siyasətinin əsas prinsipləri kimi ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi də qeyd olunan amillər sırasındadır.

Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində, bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də, davamlı olaraq, yaxşılaşması özünü göstərir. Statistik rəqəmlərə nəzər salsaq, görərik ki, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün, 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə doğulanda gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən, kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən, kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb.

Bildiyimiz kimi, ölkəmizdə siyahıyaalmaya oktyabrın 1-dən başlanılıb və 10-na qədər keçiriləcək. "Əminəm ki, 10 gün ərzində Azərbaycan əhalisinin tam şəkildə siyahıyaalınma prosesi başa çatacaq və bizə iqtisadi inkişafla, infrastrukturla, miqrasiya və əmək resurslarının artımı ilə bağlı yeni məlumat verəcək ki, gələcək inkişafımızı necə planlaşdıraq" - deyən Cənab Prezident bizdə əmək resurslarının artdığını və həyata keçiriləcək tədbirlərin bu artıma uyğun olmasını bildirib.

### "SOSİAL-İQTİSADİ İNKİŞAF DEMOQRAFİK İNKİŞAFLA UZLAŞIR VƏ BU DA TƏBİİDİR"

Əlbəttə ki, ölkəmizdə əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində, yeni Dövlət Proqramı layihəsi hazırlanıb ki, layihədə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən olunub.

Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla, səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

Bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklərə səbəb olub. Əlbəttə ki, iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız artıb. Son 16 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin cari ildə imzaladığı fərman və sərəncamlar vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb və bu tədbirlər sosial sahədə inqilabi dəyişikliklər kimi xarakterizə olunur. "Vətəndaşların sosial rifahı yaxşılaşır" - deyən Cənab Prezident təkcə bu il minimum əməkhaqqının, təxminən, iki dəfə artırıldığını, həmçinin, pensiyaların, tələbələrin təqaüdlərinin, müavinətlərin artırıldığını da vurğulayıb: "Yeni sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır və bu da təbiidir."

Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam, 4 Fərman sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və başqa kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb və bu tədbirlər sosial sahədə inqilabi dəyişikliklər kimi xarakterizə olunur. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq, 180 manatdan 250 manata çatdırıldı. Bu, 2019-cu il ərzində dövlət başçısının tapşırığı ilə minimum əməkhaqqında edilən, artıq ikinci ciddi artımdır.

Göründüyü kimi, bu və ya digər sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. Ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində, göründüyü kimi, əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi, davamlı olaraq yüksəlib.

Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə və dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini əhatə edir. 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Bu bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

3 oktyabr 2019-cu il

# Putin Paşinyanı da, təklifini də rədd etdi

***Rusiya prezidenti Vladimir Putin Ermənistana gedib, lakin erməni baş nazir Nikol Paşinyanın onunla görüşmək təklifini rədd edib. Ermənistana məxsus "168 Jam" qəzeti də bu barədə açıq-aşkar yazır. Ermənistanın bir sıra xəbər saytları, məsələn, "aysor.am" kimi sayt da bunu yayımlamaqdan çəkinmir, bu reallığı etiraf edir.***



Qəzet yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyanın İrəvanda təkbətək görüş barədə təklifinə Rusiya prezidenti Vladimir Putin məhəl də qoymur. Qəzet öz mənbələrinə istinadən xəbər verir ki, Rusiya prezidenti Ermənistanda cəmi bir neçə saat olacaq və hətta görüşdən sonrakı rəsmi nahar yeməyinə də qatılmayacaq. Qəzet təsdiq edir ki, Ermənistan tərəfi ikitərəfli görüş təklifi etsə də, Rusiya bu təklifi indiyədək rədd edib.

Son zamanlar elə Ermənistana məxsus mətbuat səhifələrində də bu görüşün rədd edilməsi şərh edilir, təhlil olunur və müxtəlif siyasətçilər tərəfindən müzakirəyə çıxarılır. Ermənistana məxsus KİV-lərin özləri belə Paşinyanın, nəinki görüş təklifinin, özünün də rədd edildiyini etiraf edirlər. Etiraf edirlər ki, Ermənistanın baş naziri Rusiya üçün, bu ölkənin prezidenti Vladimir Putin üçün zərrə qədər maraq kəsb etmir. Əksinə, tamamilə maraqsız olduğu göz qabağındadır. Belə bir yanaşmanın hardan qaynaqlandığı, əslində, ümumilikdə, dünya ictimaiyyəti üçün sirr də deyil. Çünki ötən ilin aprel ayından bu vaxta qədər Paşinyanın rəhbərliyi ilə Ermənistanın hansı oyunlarda iştirak etdiyi, Rusiyaya qarşı olan mövqeyi təkcə Putinə deyil, hər kəsə bəllidir. Həm Nikol Paşinyana, həm də ümumilikdə, Ermənistana rusların simpatiyası artıq mümkünsüzdür. Çünki mövcudluğuna görə, nəinki bütövlükdə, Ermənistanın, hətta hər bir erməninin belə borclu olduğu rusları ermənilər bir anda Qərb siyasətinə satdılar. Ukrayna məsələsinin müzakirəsində də bu satqınlıqlarını utanmadan, açıq-aşkar da nümayiş etdirdilər.

Doğrudur, baş nazir Paşinyandan tutmuş, sıravi erməniyə qədər hər kəs bu satqınlığın səhv addım olduğunu anladı. Amma artıq çox gecdir və Vladimir Putinin timsalında rusların hər biri erməni simasızlığına, xəyanətkarlığına tam şahid oldular. Məsələ şahid olmaqla da bitmədi və əmin olundu ki, bu erməni deyilən toplum, bir anın içərisində özünə böyük qardaş hesab etdiyi və hər zaman arxalandığı xalqı da, dövləti də sata bilir və xəyanətkarlıqda mahirdir.

Bir vaxtlar Nikol Paşinyana "qaz" verib, verbofka edən Qərb olsa da, sonda bu ölkə, ən azından, Rusiyanın qazına möhtacdır ki, bunu da, hər bir erməni çox aydın şəkildə dərk edir. İndi qazın qiymətinin artırılması məsələsi ortaya çıxanda, ermənilər əl-ayağa düşməli oldular. Vladimir Putin onların növbəti dəfə simasızlığının səbəbini özlərindən də yaxşı bilir. Bilir ki, bu yaxınlaşmaq, bu görüş təklifi heç də dostluq münasibətləri deyil və sadəcə, möhtac olduqlarına görə erməni xislətindən doğan yaltaqlıqdır.

Rusiya prezidentinin Ermənistanda cəmi bir neçə saat olacağı, hətta görüşdən sonrakı rəsmi nahar yeməyinə də qatılmayacağı əbəs yerə deyil. Bu, Ermənistan tərəfinin ikitərəfli görüş təklifinin Rusiya tərəfindən rədd edilməsidir. Təkcə Ermənistan tərəfinin deyil, baş nazirin təklifinin rədd edilməsi elə Nikol Paşinyanın özünün də rədd edilməsi deməkdir.

Vladimir Putin rəhbərlik etdiyi dövlətə, Rusiyaya qarşı mövqe sərgiləyən, bu yolda Qərbin siyasətinə alət olan birini rədd etməkdə, əslində, haqlıdır. Onun haqlı olduğunu heç Qərb siyasətçiləri də təkzib edə bilməz. Çünki Qərb də onları bəzi hallarda Rusiyanın ayaqlarına atan Paşinyanı tanıyıb. Ermənistanın baş nazirinə lazım olduqda Qərbə, lazım olmayanda Rusiyaya meyil etdiyi heç birinin diqqətindən kənarda deyil. Ona görə də, bu gün Nikol Paşinyanla görüşdən imtina edən Vladimir Putini heç kim qınamayacaq.

Digər tərəfdən, rədd cavabı məsələsi təkcə xəyanətkarlıqla da bağlı deyil. Bu məsələ Ermənistanın vəziyyəti, onun bugünkü durumu, Nikol Paşinyanın reytinqini, nüfuzunu itirməsi və bu kimi digər amillərlə də əlaqədardır. Etiraf edək ki, əlaqələrin qurulmasında və yaxşılaşdırılmasında iqtisadi səmərəlilik, ən azından, siyasi maraqlar da böyük rol oynayır. Hər bir dövlət, bu dövlətin başçısı iqtisadi cəhətdən səmərəli olan əlaqələrə, yəni iqtisadi potensialı olan dövlətlərlə əlaqələrə maraqlı olurlar ki, bu maraqların heç biri Ermənistan üçün xarakterik deyil.

Məsələn, Rusiya Azərbaycanla əlaqələrə niyə də maraqlı olmasın? İqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan Azərbaycanla əlaqələrin qurulması təkcə Rusiya deyil, bütün dünya ölkələri üçün maraqlıdır. Azərbaycanın beynəlxalq və regional layihələri, tranzit xətləri, məhsul istehsalı, ixrac və idxal potensialının fonunda ölkəmizlə əlaqələrin qurulması, yaxşılaşdırılması təkcə Rusiya deyil, hər bir ölkə üçün maraq dairəsindədir. Çünki Azərbaycan investisiya baxımından da, münbit yerdir və bu əlaqələr gələcək perspektivləri şərtləndirir.

Ermənistan üçün isə, bunları demək mümkün deyil. Çünki Ermənistan nə istehsalla məşğuldur, nə ixracatından, nə də idxalından söhbət belə gedə bilməz. Bu ölkə heç bir qlobal və regional layihələrdə də iştirakçı deyil. Bütün layihələrdən kənarda qalmış Ermənistan bölgədə marginallaşmış bir durumdadır. Ermənilər özləri də etiraf edirlər ki, Nikol Paşinyanın Los-Ancelesdə erməni diasporundan vəsait istəməsi, daha doğrusu, dilənməsi, Ermənistanın, bütövlükdə, ermənilərin hamısının istehsaldan, məhsuldan, gəlirdən məhrum olmalarının təsdiqidir. Bir çox erməni siyasətçilər, məhz buna görə də, Paşinyanı, hətta qınadı da və bəyan etdilər ki, erməni baş nazir bütün Ermənistanı və erməni xalqını rüsvay edib. Belə bir durumda olan dövlətlə əlaqələrin qurulmasına Rusiya, yaxud Vladimir Putin nəyə görə maraqlı olmalıdır? Hansı mənfəətdən söhbət gedə bilər və ümumiyyətlə, Nikol Paşinyan rəhbərlik etdiyi belə bir acınacaqlı ölkədə Vladimir Putinə nə kimi təkliflər edə bilər ki, ikitərəfli görüşlərdə də bu, müzakirə olsun? Rusiya prezidenti bilmirmi ki, erməni baş nazir yalnız ondan, Rusiyadan yenə nə isə qoparmaq niyyəti ilə belə bir təklif edir? Bu halda, o, niyə razılaşmalıdır ikitərəfli görüşə?

Digər tərəfdən, Rusiyanı bölgədəki siyasi vəziyyət maraqlandıra bilər. Qafqazda vəziyyətə nəzarət etmək üçün Qərbin də Rusiyanın da marağı, hətta soyuq müharibələri təkzibedilməzdir. Bəllidir ki, Nikol Paşinyanı bölgədə dəstəkləyən Qərbin elə məqsədi də bu olub. Rusiyanın da bu regiondan imtina edəcəyi inandırıcı deyil. Rusiya bu bölgədən, heç zaman imtina etmədiyi kimi, bundan sonra da imtina edə bilməz. Amma bölgəyə nəzarət etmək üçün artıq Ermənistan Rusiya üçün maraq dairəsində ola bilməz. Çünki Ermənistan gah Qərbə, gah da Rusiyaya üz çevirən siyasəti ilə etibarı itirib. Xüsusilə, qeyd etmək lazımdır ki, bu etibarın itirilməsində Paşinyanın da rolu az olmayıb və daha dəqiq desək, onun rolu daha çox olub. Hər bir halda, Ermənistana siyasi maraqlar da yox dərəcəsindədir. Çünki bölgədə daha qüdrətli, daha qüvvətli, daha potensiallı, inkişaf etmiş Azərbaycan kimi bir güclü dövlətlə əməkdaşlıq etmək kimi Rusiyanın seçimi var. Rusiya bu seçim imkanları daxilində, əgər siyasi baxımdan da Ermənistana qarşı maraqlı deyilsə, deməli, yenə də Ermənistana rədd cavabı verməkdə haqlıdır.

Nikol Paşinyana gəldikdə isə, onun vaxtaşırı öz mövqeyini dəyişməsinin fonunda Rusiya kimi stabil dövlət və bu dövlətin prezidentinin münasibəti başqa cür ola bilməzdi. Vladimir Putin yaxşı bilir ki, Qərb siyasətinə alət olan paşinyanın siyasi karyerası çoxdan bitib və o, artıq söz sahibi deyil, bir diktatordur. Onun repressiyalar, təqiblər, polisin, güc strukturlarının hesabına öz hakimiyyətini qoruduğu da Rusiya prezidentinə bəllidir. Ermənistanda bu inqilabçının dövrünün bitdiyini, əhali arasında narazılıqların artdığını, onun nüfuzunun tamamilə yoxa endiyinin fonunda, artıq söz sahibi olmadığı halda, niyə Vladimir Putin Nikol Paşinyanın təklifini qəbul etməli, onunla görüşməyə maraqlı olmalı idi? Bir sözlə, Rusiya kimi böyük, qüdrətli bir ölkənin prezidenti bu gəlişində görüşdən imtina etməklə, Nikol Paşinyanı da, onun təklifini də rədd edib ki, bunu bütün dünya ictimaiyyəti çox yaxşı görür.

***İnam HACIYEV***

# Putin Paşinyanı adam yerinə qoymadı

Ermənistanda keçirilən Avrasiya İttifaqının iclasında Rusiya prezidenti Vladimir Putin Paşinyana və onun komandasına tam açıq bir hörmətsizlik və sayğısızlıq nümayiş etdirdi. Bu, Rusiyanın Paşinyanı bir dövlət rəhbəri kimi qəbul etməməsi və ümumiyyətlə, Ermənistanı özünün quberniyalarından biri kimi baxması ilə səciyyələndirmək olar. Söhbət etdiyimiz müsahiblərimiz də qeyd etdilər ki, Paşinyanın ağılsız siyasəti Ermənistanla-keçmiş "dostlar" ilə münasibətlərinin kəskinləşməsinə və münasibətlərin pozulmasına gətirib çıxarıb.



**Millət vəkili Tahir Rzayev: "Rusiya Ermənistana qarşı təsir vasitələrini işə salır"**

- Rusiya və Ermənistan münasibətlərində yaranmış çatlar gündən-günə genişlənmək və Yerevanı pis vəziyyətə salmaqdadır. Bu soyuqluq hər an hiss olunur. Rusiya prezidenti Vladimir Putinin Yerevanda keçirilən Avrasiya İttifaqının iclasında az bir müddətdə qalması bunu söyləməyə əsas verir. Paşinyanın səhv siyasəti, ikili mövqe tutması və arxada Qərbə meyillənib, üzdə Rusiyaya yaxınlıq göstərməsi diqqətdən yayınmır. Digər tərəfdən, Koçaryanın həbsi Rusiya rəhbərliyində narazıçılıq doğurur. Ermənistan baş nazirinin bəzi məsələlərdə Rusiya ilə məsləhətləşməməsi, təkbaşına addımlar atması yaxşı qarşılanmır. Məhz buna görə də, Rusiya Ermənistana qarşı təsir vasitələrini işə salır. Ölkəyə verilən qazın qiymətinin artırılması, Yerevanın səhvləri barədə Rusiya siyasətçilərinin verdiyi bəyanatlar, səsləndirilən tənqidlər, başlıcası, Putinin soyuq münasibəti deyilən fikirləri səciyyələndirir. Sözsüz ki, bütün bunlar Azərbaycanın xeyrinədir, Ermənistanın böyük dövlətlər tərəfindən qəbul edilməməsi və dəstəklənməməsi işğalçı dövlətin dünya birliyindən təcrid olunmasına gətirib çıxarır.



**Politoloq Elşad Mirbəşiroğlu: "Putin Paşinyanı bir həmkar kimi qəbul etmir"**

- Həqiqətən də, bu görüş bir çox məqamları cəlb etdi. Hər şeydən öncə, qeyd etmək lazımdır ki, görüşdən əvvəl Rusiya mediasında Vladimir Putinin, ümumiyyətlə, Ermənistana səfərindən imtina edəcəyi haqqında da fikirlər səsləndirir, məlumatlar qeyd olunurdu. Çünki bir çox ziddiyyətli məqamlar vardı. Belə versiya irəli sürülürdü ki, Putinin Koçaryanla görüş məsələsi qoyulubdur. Ermənistan tərəfi bunu qəbul etməyib və bu da, Rusiya tərəfini narazı salıb. Amma buna baxmayaraq, bu görüş baş tutdu. Putinlə Paşinyanın ikilikdə söhbətinə diqqət yetirsək, görərik ki, sözün həqiqi mənasında, Putin Paşinyanı bir həmkar kimi qəbul etmir. Paşinyan özünü nə qədər bir statuslu şəxs kimi - Ermənistanın rəhbəri kimi göstərməyə çalışsa da, bu nəzərə çarpmadı. Bu baxımdan, Rusiyada Paşinyana münasibətdə formalaşmış bir mövqe var. Ümumiyyətlə, Rusiya ictimaiyyətində Paşinyan qeyri-ciddi Rusiyaya dost olmayan bir dövlət başçısı kimi qəbul olunub. Təbii ki, Paşinyanın özünün sərgilədiyi mövqe Rusiyaya münasibətdə belə bir rəy formalaşdırıbdır. Təbii ki, Paşinyanın və yaxud da kimin hakimiyyətdə olmasından asılı olmayaraq, işğalçı ölkə elə özünün siyasətinin qurbanı olub və Ermənistan Rusiyanın bir forpostu kimi özünü tanıtdırıbdır.

***GÜLYANƏ***

# Aslan İsmayılov bu dəfə Qurban Məmmədovun hədəfində

## Tərəflər arasında həqarət və təhdidlər artır



*"Hüquq müdafiəçiləri" Aslan İsmayılovla Avropada yaşayan Qurban Məmmədov arasındakı qarşıdurma şiddətlənməkdə davam edir. Belə ki, artıq söz savaşı və ittihamlar ağır təhqirlərlə əvəzlənməkdədir. Maraqlıdır ki, hətta A.İsmayılovun Q.Məmmədovun rəhbəri olduğu "Azerifreedom" internet kanalının canlı yayımına çıxıb və sonradan nümayişkəranə şəkildə canlı yayımı tərk edib. Onu da xatırladaq ki, qarşıdurmanın əsasında hüquqşünasın 1993-cü ildə Azərbaycan parlamentində etdiyi çıxışın videosunu paylaşması dayanır. Məhz bundan sonra onun Q.Məmmədovla qarşıdurması yaşanır. Bu arada, onların arasında olan "vatsap"dakı səs yazısı yayılıb. Həmin yazı bir çox mətləblərin üstünü çılpaqlığı ilə açır.*

### Aslan İsmayılov: "Ailəni, övladlarını necə söydürdün"

A.İsmayılovun Qurban Məmmədova atdığı səs yazısının mətni: "Qurban, sənə sonuncu dəfə deyirəm, məndən uzaq ol. Oyunlarını get, özün oyun yoldaşlarınla oyna. Onu-bunu ömrü boyu şantaj etmisən, məni edə bilməzsən. Mən evində olub, duz-çörək kəsdiyimə görə, bildiklərimi demirəm. Sənin haqqında, biləsən, həddindən artıq çox bilirəm. Ona görə özünü yığışdır, get rəhimləri, surətləri, əlikramları, bu vətən xainlərini qəhrəman et və tarixə də bu cür düş. Sən heç olmasa, yaşına-başına abır-həya qoy. Ailəni, övladlarını necə söydürdün? Bundan utan, heç olmasa".

### Quran Məmmədov: "Sənin kimi adamlar cəmiyyət üçün daha təhlükəlidir, nəinki açıq düşmənçilik edənlər"

Q.Məmmədovun A.İsmayılova cavabı: "Əziz dostum və qardaşım Aslan bəy, hörmətli Aslan İsmayılov, mən səndən uzaq idim və sən özün zorla mənə yaxınlaşdın. Zorla məni məcbur etdin ki, sənin haqqında danışım və bundan sonra da danışacam. Ürəyin istəyən şəkildə haqqımda nə bilirsənsə, de. Oldumu? Sən özün nə işlə məşğul olduğunu çox gözəl bilirsən. Sənin haqqında mənə gələn məlumatları ümumiləşdirib, zaman-zaman xalqa təqdim edəcəm. Çünki sənin kimi adamlar cəmiyyət üçün daha təhlükəlidir, nəinki açıq düşmənçilik edənlər. Səni xalq savadlı, prinsipal hüquqşünas, doğru-dürüst mövqeyi olan insan kimi tanıyır. Bu cəmiyyətə özünü belə tanıtdırmısan. Amma indi aydın olur ki, sən, əslində, göründüyün kimi deyilsən. Sənin çox çirkin niyyətlərin var. Ona-buna böhtan atmaqla, şantaj etməklə, hədə-qorxu gəlməklə, uzaq getmək olmaz. Özünü düzəlt. Mən düz-çörək kəsən adam kimi işarə vurdum, səni başa saldım. Sən mənə efirdə deyirsən ki, mənə məsləhət vermək qabiliyyətində deyilsən. Nə deyirsən de, əcəb edirsən. Amma sən çox zərərli hərəkətlər edirsən. Sənin bu gün tutduğun mövqe xalqımızın və dövlətimizin əleyhinədir. Bunu biləsən. Kimlərinsə əli ilə Elvin İsayevə təzyiq etməklə, sübut edirsən ki, sən kimsən. Mənə hədə-qorxu gəlib-eləmə. Bir şeyi bilməlisən ki, başqası haqqında danışanda cavabını alacaqsan. Ataların bir gözəl misalı var, "söymə nökər dədəmi, söyməyim xan dədəni". Burada səninlə şəxsi münasibət aparmıram. Görəndə ki, sən bütün xətləri aşıb, başlamısan açıq şəkildə xalqın mənafelərinin əleyhinə çıxış etməyə, sənə bildiyimi edəcəm, buna qətiyyən şübhən olmasın. Bildiyini danış, danışmasan, namərdsən! Rusiyada məhkəmə sədri işləyə-işləyə, o boyda işini atıb Azərbaycana niyə, nə məqsədlə qayıtdığını, kimlərinsə vasitəsilə gəlib, qısa müddətdə Prezident Aparatına qədər getdiyini araşdıracağam. Sənin bütün əlaqələrini müəyyənləşdirəcəm. Azərbaycanda xalqın azadlığı uğrunda mübarizə aparan adamlar kənarda qalaqala, sən Rusiyada işini atıb, ölkəyə niyə gəlmişdin? Sən döyüşdə - filan olmamısan. Bunları araşdıracam, buna sən özün məni məcbur etdin. Mən sənin bütün davranışlarından şübhələnmişəm, özü də uzun müddətdir. Fikirləşdim ki, bəlkə düzələsən. Görünür, səni kimlərsə buna məcbur edir, iradən öz əlində deyil. Yalandan efirdə basıb-bağlamaqla deyil ki, özün haqqında uydurma imic yaradasan. Sənin hərəkətlərin kimliyin haqqında kifayət qədər məlumat verir, danışır".

### Aslan İsmayılov: "Sən anadangəlmə şantajçı-böhtançısan"

A.İsmayılov isə bu cür davam edir: "Qurban, sənə dedim ki, bildiyini elə. Öz içdiyin suya məni bağlama. Vaxt gələcək hər şey üzə çıxacaq. Haradan su içirsən, bəlli olacaq, kimlərlə birlikdə su içdiyin. Qurban, sən kişilik, abır-həya başa düşsən, o gözəl həyat yoldaşını və qızlarını o cür söydürməzdin. Sən heç nə başa düşmürsən. Ona görə ki, səndə müqəddəs heç nə yoxdur. Allah qorxusu yoxdur. Sən anadangəlmə şantajçı - böhtançısan. Əlindən gələni iki qaba çək. Səninlə çox söz güləşdirməyəcəm. Amma məqamı gələndə, sənin kim olduğunu hamı görəcək. Mənim nəsə eləməyimə heç ehtiyac olmayacaq. Ona görə deyirəm ki, özün cəhənnəm, adını qazanmısan, bütün ölkə bilir. O balalarına yazığın gəlsin. Bu, sənə məsləhətimdir".

### Qurban Məmmədov: "Tarix kimin-kim olduğunu göstərəcək, kimin yaramaz, şərəfsiz, satqın, oyunçu olduğunu"

Q.Məmmədov: "Narahatçılıq keçirdiyinə görə, təşəkkür edirəm. Bunu biləsən, ailəmi söyənlər var ki, zamanı gələndə, bir-bir cavab verəcəklər, paylarını alacaqlar. Sənə məsləhətim odur ki, özünü yaxşı apar. Ya olduğun kimi görün, ya da göründüyün kimi ol. Oldumu?"

A.İsmayılov: "Qurban, bundan sonra sənin heç bir yazına, çıxışına cavab verən deyiləm. Abrımı qoruyanam. Amma bil ki, ilahi ədalət var. Sənin kimilər mənim üçün heç nədir. Mənə etdiyin pisliklərə, yalanlara, böhtanlara baxmayaraq, sənə də kinim yoxdur. Ümumiyyətlə, dünyada heç kimə kinim yoxdur. Bir devizim var: xoşbəxt olmaq istəyirsənsə, içini təmiz saxla, yaradan sənə kömək olacaqdır. Bundan sonra nə bilirsənsə, onu da et. Mənə ağıl vermək sənin kimilərin işini deyil. Tarix kimin-kim olduğunu göstərəcək, kimin yaramaz, şərəfsiz, satqın, oyunçu olduğunu".

Göründüyü kimi, bu şəxslərin, əslində, heç biri dövlət və xalq maraqları üçün xidmət göstərməyiblər. Əksinə, onlar bir-birlərinin paxırlarını açıb, hakimiyyətə işləmək ittihamlarını irəli sürməklə, digər qaranlıq məqamlarını da ifşa etmiş olurlar. Özlərini gah müxalifətçi, gah da müxalifət işində müxalifətçi obrazına salıb, min-bir oyunlar oynayan ünsürlər, əslində, kim olduqlarını sübut edirlər. Daha dəqiq desək, bir-birlərini ittiham etdikcə, hansı yuvanın quşu olduqlarını özləri etiraf edirlər. Hər halda, yuxarıdakı faktlar da, bu cür deməyə əsas verir.

**Rövşən RƏSULOV**

# Ədliyyə Nazirliyi: Taleh Bağırzadənin həyat yoldaşı barəsində cinayət təqibinə xitam verilib




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə məhkum Taleh Bağırzadənin həyat yoldaşı Leyla İsmayılzadənin cinayət məsuliyyətinə cəlb olunması barədə yayılan məlumatlarla bağlı açıqlama yayıb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan açıqlamada qeyd olunub: "L.İsmayılzadə övladları ilə birgə həyat yoldaşı məhkum T.Bağırzadə ilə görüşlərinin birində cəzaçəkmə müəssisələrində istifadəsi qadağan olunmuş mobil telefonu qanunsuz olaraq ərinə ötürməyə cəhd edib. Faktla bağlı ibtidai istintaq aparılaraq onun əməlində cinayət tərkibinin olduğu müəyyən edilib, buna baxmayaraq, bu əməlin böyük ictimai təhlükə törətmədiyi, himəyəsində dörd azyaşlı uşağının olması, mövcud ailə vəziyyəti nəzərə alınaraq səmimi peşman olduğu halda, barəsində cinayət təqibinə xitam verilməsinin mümkünlüyü nəzərdən keçirilib.

Bununla əlaqədar istintaq prosedurlarına uyğun olaraq L.İsmayılzadənin törətdiyi əmələ münasibət bildirməsi və iş üzrə prosessual qərar qəbul edilməsi üçün ona iki vəkilinin iştirakı ilə Cinayət Məcəlləsinin 29, 317-1.1-ci (cəzaçəkmə müəssisəsində saxlanılan şəxsə qadağan olunmuş əşyanın ötürülməsinə cəhd) maddəsi ilə ittiham elan olunub.

L.İsmayılzadə törətdiyi əməldən səmimi peşmanlığını bildirərək təqsirindən keçilməsini xahiş edib. Bu əsaslarla istintaq tərəfindən prosessual qaydalara uyğun olaraq onun barəsində humanist qərar qəbul olunaraq cinayət təqibinə Baş Prokurorluğun razılığı ilə xitam verilib. Bununla əlaqədar bildirilir ki, L.İsmayılzadənin guya məhkəmə məsuliyyətinə verilməsi barədə mediada və sosial şəbəkələrdə yayılmış məlumatlar həqiqətə uyğun deyil. Sensasiya xatirinə belə uydurma məlumatları yayanlar ictimaiyyəti çaşdırmaq, dövlət orqanlarının qanuni və ədalətli fəaliyyətinə kölgə salmaq məqsədi güdürlər".

# Gömrük nəzarətindən gizlədilən telefonlar aşkarlanıb



Gömrük nəzarətindən gizlədilən telefonlar aşkarlanıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, "Xanoba" gömrük postunda Rusiya istiqamətindən idxal gömrük nəzarət xəttinə daxil olan Azərbaycan vətəndaşının "Mercedes-Benz V220" markalı avtomobili saxlanılıb və gömrük baxışı keçirilib. Yoxlama zamanı nəqliyyat vasitəsinin ön sərnişin oturacağının altından gömrük nəzarətindən gizlədilən 1 ədəd "iPhone XS Max Space Gray 64 GB" və salonun ön panelinin hava filteri üçün nəzərdə tutulan yerin arxasında olan boşluqlardan 2 ədəd "iPhone XS Max Space Gray 256 GB", 1 ədəd "iPhone XS Max Gold 256 GB", 1 ədəd "iPhone XS Max Space Gray 64 GB" markalı mobil telefon aşkarlanıb. Faktlarla bağlı araşdırma aparılır.

# Paytaxt sakininə qarşı quldurluq edən şəxslər saxlanılıblar




Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini İ.Balakişiyev oktyabrın 1-də saat 22 radələrində A.S.Puşkin küçəsindəki parkda üç nəfərin onu döyərək içərisində 130 manat pul və iki mobil telefonu olan çantasını aldığını bildirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, quldurluğu törətməkdə şübhəli bilinən Sabirabad rayon sakinləri V.Şahmarlı, K.Məmmədli və Gədəbəy rayon sakini İ.Məmmədov polis əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Faktla bağlı araşdırma aparılır.

# Yaş müxalifətin oduna quru da yanar

## ADP sədri AXCP-nin keçmiş NTK sədri Aydın Əliyevin dediklərinə dəstək olub

***Son günlər AXCP-nin NTK sədri Aydın Əliyevin, ardıcıl olaraq, Əli Kərimli haqqında 25 ildən bu günə kimi törətdiyi cinayətləri ictimaiyyətlə bərabər müxalifət partiya sədrlərinin də ürəyindən olub. Müxalifət düşərgəsi təmsilçilərinin öz şəxsi ambisiyalarını demokratiya pərdəsi altında həyata keçirdikləri üzə çıxıb: "Onlar insanlar arasında nüfuzlarını, inamlarını və etibarlarını elə itiriblər ki, bir daha qazana bilməyəcəklər. Biz də onların "qurbanına" çevrilmişik. Xarici təşkilatlardan çoxlu maddi vəsait alan "bəy"lər seçkilər ərəfəsində "demokrata" çevriliblər".***

### "Demokratiya"nın mənasını anlamayanlar mitinqlərdə bir daha xalqın nifrətini qazanıblar

Bu gün özünü müxalifətçi adlandıranların hər seçkilər ərəfəsi "demokrata" çevrilmələri, doğrudan da, gülüş doğurur. Ən maraqlısı da odur ki, bu müxalifətçilərin istər icazəli, istər icazəsiz, istər qeyri-qanuni, istər səviyyəli, istər səviyyəsiz düşünülməmiş mitinq və piketlər keçirməyə cəhd etdiklərini dəfələrlə görmüşük. Onu da görmüşük ki, həmin mitinqlərdə 200-300 nəfərdən çox adam olmayıb. Maraqlısı da budur ki, radikal müxalifətin keçirmək istədiyi mitinq və piketlər ölkədə keçiriləcək seçkiərəfəsi başlayır. Mitinq baş tutmayanda, başlayırlar hay-küy salmağa ki, ölkədə, nə bilim, "demokratiya" boğulur, "iqtidar təzyiqlər edir" və yaxud "imza toplamağa imkan verilmir"... daha nələr, nələr... Adama deyərlər ki, ay dələduz, seçici səni tanımırsa, sənə etibar etmirsə, buna hakimiyyət neyləsin?! Bu yerdə ötən parlament seçkisiərəfəsi ADP sədri Sərdar Cəlaloğlunun iqtidar partiyasına yalvarışlı müraciəti yadıma düşdü. S.Cəlaloğlu demişdi ki, "neyləyək ki, seçici imza vermək əvəzinə, qapını üzümüzə bağlayır. Olmaz ki, bizə də kömək edəsiniz?" Belə olan halda, soruşmaq istərdik ki, ay seçkilərə qatılmaq istəyən dağıdıcılar, sentyabrın 28-də təyin etdiyiniz mitinqə Bakı Şəhər İcra Hakimiyyəti razılıq verdiyi halda, niyə mitinqi keçirmədiniz? Və yaxud mitinq keçirmək arzusuna düşən digər radikal müxalifət partiyaları hansı üzlə mitinq keçirmək istəyirlər? Bir araya gələ bilmirsiniz, imza toplaya bilmirsiniz, iqtidarın ünvanına nə qədər böhtan atacaqsınız? Bir də, özünüz demişkən, müxalifətdə 20-30 il olmağınıza baxmayaraq, hələ indiyə qədər 200 imza belə toplaya bilmirsiniz. Topladığınız o imzaları da üzünüzə üzlük tutaraq, min bir tənələri götürməklə yığmırsınız? Sərdarın bir ifadəsi də yadıma düşdü: "İmza toplamağa kimi göndərim? Yanımda bir-iki nəfər adam var, onlar da dirənirlər üzümə. Deyirlər ki, seçici, nəinki imza verir, bizi elə isladır ki..."



### İslanmışın yağışdan nə qorxusu?..

Ay S.Cəlaloğlu, "islanmışın, yağışdan nə qorxusu?" Belə olan halda, hansı üzlə bir də mitinq və piket keçirmək istəyinə düşürsünüz? Axı, yaxşı bilirsiniz ki, 25 ildən çoxdur ki, həm xalq, həm də öz funksionerləriniz sizin uğursuzluğunuza nifrət edir.

Bir də, iqtidarı ölkədə demokratiyanın olmaması ilə günahlandırmaqla özünüzü düşərgə sakinlərinin qarşısında "təmizə" çıxarmaq istəyirsiniz. Ancaq bir anlığa "demokratiya carçıları"ndan soruşmaq istərdik ki, "demokratik" anlayışın nə demək olduğunu başa düşürlərmi? Əgər başa düşsəydilər, o zaman niyə icazəli mitinqi keçirmirlər? Ancaq onlara ayrılmış yerlərdən istifadə etmək əvəzinə, icazə verilməyən ərazilərdə piketlər keçirməyə cəhd edirlər. Belə olduğu təqdirdə, öz vətəndaşlarının rahat yaşamasına xüsusi diqqət və qayğı ilə yanaşan dövlətimiz müxalifətin icazəsiz mitinqlərinin qarşısını alırsa və onları insanları narahat etməyə qoymursa, sizcə, bu, demokratiyanın pozulmasıdır?

### Mirmahmud Mirəlioğlu: "Əli Kərimli kimi sosial şəbəkələrin oyunbaz satqını yoxdur"

Bu arada, KXCP sədri Mirmahmud Mirəlioğlunun da Ə.Kərimli haqqında dediklərini xatırlatsaq, A.Əliyevlə fikirlərinin üst-üstə düşdüyü məlum olur. M.Mirəlioğlu ötən seçkilər ərəfəsi demişdi ki, Ə.Kərimlinin bu manyak "arzusu" bu dəfə onun başında bərk partlayacaq. Nəticə göz qabağındadır. KXCP sədri demişdir: "Liderinə xəyanətkar və qatil olan gec-tez cəzasını çəkməlidir. Məsələn, bu günlərdə Ə.Kərimlinin mərhum Əbülfəz Elçibəyin ruhu qarşısında həyasızcasına hər zamankı kimi yenə də sosial şəbəkədə ortalığa düşüb, özünü "qanan" hesab etməsini görə-görə, bu əxlaqsızı cavabsız qoya bilmərəm. Axı sən kimsən ki, ortalığa düşmüsən? Müxalifəti bu günə salan sən oyunbazsan. Ölkədə keçirilən bütün siyasi proseslərdə daha çox siyasi oyunbazlıq və siyasi əxlaqsızlıq nümayiş etdirirsən. Azərbaycan siyasətində mən Ə.Kərimli qədər xəyanətkar görməmişəm".

KXCP sədri, həmçinin, Ə.Kərimlinin əxlaqsız olduğunu da bildirib: "Mən Ə.Kərimli kimi oyunbazlıq etmirəm, gördüklərimi deyirəm. Siyasətə siyasi əxlaqsızlıq, özündən böyüyə hörmətsizlik etməyi, ayaqaltı qazanlığı, iyrəncliyi, insanlar haqqında çirkin kampaniyalar aparıb, ləkələmək kimi işlərin altına imza atan Ə.Kərimlinin bu gün siyasət aləmində qalmasının özü qəribədir. İndi də bədbəxtçilik ondadır, indi də küçük əxlaqsız Kərimli - oğlu Türkel Kərimli peyda olub. Bu məxluqlar başdan-ayağa kimi zəlidirlər. Bələləri, nəinki cəmiyyətin inkişafına yardımçı ola bilər, əksinə, mümkün qədər cəmiyyətə zərər verməklə məşğul olacaq. AXCP-ni quran, onu ortaya çıxaran və sivil mübarizəsini təşkil edən Əbülfəz Elçibəy idi. Məhz Əbülfəz bəyin sayəsində partiya partiyalılığını qoruyub-saxlamışdı. Amma ona qarşı Ə.Kərimli tərəfindən aparılan kampaniyalar, xüsusən də, iyrənc formada təşkil edilən məlumat yaymalar mahiyyət etibarilə bu şəxsin hansı ləyaqət və şəxsiyyət sahibi olduğunu ortaya qoyurdu. Onun indiyə qədər "xəyanətkar" adlandırdığı şəxslər, əslində, kifayət qədər aydın fikirli insanlar olublar və xəyanətkarın ən yekəsi elə onun özüdür və bu gün Kərimlinin "siyasi mühacir" törəmələri də, yeri gəldikdə ona qarşı çıxırlar".

Bəli, hər şeyin öz zamanı var, bütün cinayətkarların da qanun qarşısında dayanacağı vaxt var. O zamana az qalıb. Bir gün Ə.Kərimli də qanun qarşısında dayanacaq, bu cəbhəçilərə indi gülməli gəlsə də, ancaq bu, baş verəcək! Sübutlar, dəlillər öz sözünü deyəcək. Ancaq bu, bir real faktordur ki, Ə.Kərimli kimi satqın parazit və əxlaqsızlar nə qədər Azərbaycan dövlətinin qüdrətlənməsinə, dünyada söz sahibinə çevrilməsinə qarşı çıxış etsələr də, elə o çirkab bataqlığında eşələnə-eşələnə qalacaqlar. "İt hürər, karvan keçər" məsələnə boş yanaşmaq da olmaz. Ona görə də, Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimli və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir və edildi də. Bu, dövləti, Vətənini sevən hər bir azərbaycanlının sifarişi idi və qanun qarşısında cavab verməli olan əsas ünsür Əli Kərimlidir!

**Rəfiqə HÜSEYNOVA**

# Səudiyyə Ərəbistanının ictimai təşkilatı Azərbaycandakı əməkdaşlarına külli miqdarda ziyan vurdu

***Çoxəsrlik zəngin dövlətçilik ənənələrinə malik olan ölkəmiz bu gün Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələb və çağırışlarına adekvat cavab verməklə yeni çalarlarla davam etdirilməsinin bəhrəsi olaraq, dünyada böyük nüfuza və rəğbətə layiq dövlət kimi tanınır. İnam və etibarın qazanılmasının nəticəsi olaraq, xarici şirkətlər Azərbaycan iqtisadiyyatına böyük məbləğlərdə investisiyalar yatırır, ictimai-mədəni, elmi və texnologiya sahələrində yaxından iştirak edirlər.***

Düzdür, bəzən xarici ölkələrin bəzi şirkətləri və ya ictimai qurumları ölkəmizdə, yaradılan şəraitdən bəhrələnib, geninə-boluna fəaliyyətlərini qurub, müəyyən hədəflərinə və istəklərinə nail olsalar da, sonradan, üzərlərinə götürdükləri öhdəlikləri pozmaq yolu tuturlar. Bu cür şirkətlər və ictimai təşkilatların sayı kifayət qədər az və törətdikləri hüquq pozuntularının həcmi, barmaqla sayıla biləcək miqdarda olsa da, hər halda, arzuolunan hal deyil. Həm də ona görə ki, ölkəmiz həmin qurumlarla beynəlxalq hüquq normalarına və prinsiplərinə uyğun davranış nümayiş etdirərək, onların normal və yüksək səviyyədə fəaliyyət göstərmələri üçün hər cür şərait və imkanlar yaradıb. Qarşılığında isə...

Bəli, qarşılığında həmin qurumlar həm işə götürdükləri, həm öz əməkdaşlarını, həm də azərbaycanlı əməkdaşlarının hüquqlarını pozur, ya da vergi ödənişlərindən yayınmağa cəhdlər göstərirlər. Baş ofisi Səudiyyə Ərəbistanında yerləşən və 29.09.1996-cı ildə Azərbaycan Respublikasında nümayəndəliyinin yaradılması qərarına əsasən, 29.11.1996-cı ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyata alınaraq, fəaliyyətə başlamış Səudiyyə Ərəbistanın Müsəlman Gənclərin Ümumdünya Assambleyası həm əməkdaşlarının haqlarını pozub, həm də qanuna müvafiq şəkildə ödəməli olduğu vergini ödəməkdən imtina edib. Bu barədə, redaksiyamıza şikayət ərizəsi ilə müraciət edən Abdulla Arif Abdullah Abdul Həmid oğlu və Norbekova Sənubər Bəqlər qızı bildiriblər ki, nümayəndəlikdə çalışdıqları müddətdə, fəaliyyətlərini qurumun əsmanaməsinə əsasən qurub və dövlət orqanları ilə səmərəli münasibətlərin yaradılmasına nail olmuşdur. Onların yazdıqlarına görə, Abdulla Arif Abdullah Abdul Həmid oğlu müddətsiz olaraq direktor, Norbekova Sənubər Bəqlər qızı isə mühasib vəzifəsində çalışıblar: "Bağlanan müqavilənin şərtlərinə görə, Abdulla Arif Abdullah Abdul Həmid oğluna aylıq 1600 manat və imtiyaz ödənişi olaraq, əlavə məvacib ödənilməli idi. 30.12.2017-ci il tarixdən nümayəndəliyin fəaliyyətinin dayandırılması barədə baş ofisdən Müsəlman Gənclərin Ümumdünya Assambleyasının əməkdaşlarının işləri komitəsinin rəhbəri Doktor Saleh bin İbrahim Babırın imzası ilə məktub daxil olmuşdur. Nümayəndəliyin fəaliyyətinə xitam verilmədiyi üçün işimizi davam etdirmiş və bu müddətdə vergilərə müəyyən olunmuş qaydalara əsasən, ödənişlər etmişik. Lakin baş ofis bizə aylıq məvacibimizi ödəməyi gecikdirib. Bu da, fəaliyyətimizdə müəyyən problemlər yaradıb".

Şikayətçilərin qeyd etdiklərinə görə, maaşın ödənilməsi üçün baş ofisə və Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyinə dəfələrlə yazılı və şifahi müraciətlərin olmasına baxmayaraq, heç bir nəticə əldə edə bilməyiblər: "Biz məcbur olub, Bakı şəhər Yasamal rayon Məhkəməsinə müraciət etməli olduq. Məhkəmə bizim xeyrimizə qərar qəbul etdi və beləliklə, məhkəmə qərarına əsasən, Müsəlman Gənclərin Ümumdünya Assambleyasının ödənilməmiş əməkhaqlarının və kompensasiyasının ödənilməsi öhdəliyi qoyulmuşdur".

Təəssüf doğuran məqam ondan ibarətdir ki, məhkəmə cavabdehlərin məhkəmədə iştirak etmələrinə dair onlara bildirişlər ünvanlasa da, qurumun Baş ofisindən heç bir nümayəndə göndərilmədiyindən, prosesdə iştirak edən olmayıb. Bu, azmış kimi, beynəlxalq dəyərlərdən, müsəlman təəssübkeşliyindən, qardaşlığından, nəhayət, həmrəyliyindən danışan və bunu dönə-dönə vurğulayan Müsəlman Gənclərin Ümumdünya Assambleyası və onun rəhbərliyi məhkəmə qərarını yerinə yetirməməklə yanaşı, əməkdaşlarının haqqını tanımağa cəhd göstərmir.

**İ.ƏLİYEV**

**P.S.** *Mövzuya qayıdacağıq.*

# İnsan hüquqları və azadlıqları universal tolerantlıq dəyəri kimi

***Bu gün bütün dünyada insan hüquqları və azadlıqları universal dünyəvi dəyər kimi qəbul edilir. Yəni insan hüquqları əvvəlcədən, öz dünyagörüşü və mədəni və dini məsuliyyətindən asılı olmayaraq, bütün insanlar tərəfindən başa düşülən və qəbul edilən dünyəvi dəyər qismində formalaşmışdır. Bu, təbiidir. Qeyri-təbii olan budur ki, bəzən dünyəvi dəyərlərin dini dəyər və prinsiplərlə bir araya sığmadığını, onların birinin digərinə tabe edilməsini düşünənlər də vardır. Müasir dünyada baş verən münaqişə və qarşıdurmaların əksəriyyətinin səbəbi, məhz bu mövqedə duranların olmasıdır.***

Tarixi təcrübədən məlumdur ki, yalnız hər hansı bir dünyəvi dəyər əsasında bəşəriyyətin vəhdətini təmin etmək qeyri-mümkündür. Bunun anlaşılması isə, müasir qlobal cəmiyyətin inkişaf və yaşam strategiyası kimi vurğulanan demokratiya, humanizm və tolerantlıq prinsiplərinin sintezindən keçir.

Bəşəriyyət, ilk növbədə, öz keçmişinə yeni ənənəvi, mənəvi, dini prinsipə və dəyərlərinə tolerantlıq nümayiş etdirməli, onların universal dünyəvi dəyərlərə sintezi və ahəngini təmin etməyə çalışmalıdır. Əks-təqdirdə, dünyəvi dövlətdə mədəni müxtəliflik faktoruna biganəlik ortaya çıxır. Yəni bəhs edilən müstəvilər ayrı-ayrılıqda heç biri etalon və ya doqma kimi çıxış edə bilməz. İctimai-siyasi təlimləri ehkamlaşdıran bolşevizmin aqibəti məlumdur.

İnsan azadlığı, demokratiya və hüquqlara dair baxışlar, onun bəşəri dəyər kimi formalaşması müəyyən tarixi şəraitdə, konkret olaraq, Qərbdə gerçəkləşməyə başlamışdır. Bu gün, artıq birmənalı hüquqları anlayışının yalnız dünyəvi - sekulyar mənada "oxunmasından" və başa düşülməsindən irəli gəlir.

Bəhs olunan ziddiyyətli təzahürlərin qarşısını almaq üçün dünya birliyi elmi ictimaiyyəti "tolerantlıq" strategiyasını irəli sürmüşdür. Tolerantlıq bəşəriyyətin mənəvi-etik reformasiyasına nail olmaq yoludur. Tolerantlıq insanların müxtəlif olmaq və çeşidli dünyəvi və dini dəyərlər seçmək hüququnda ifadəsini tapan ali dəyər və qlobal birgəyaşayış normasıdır.

Tolerantlığa dair müxtəlif konfranslar keçirilir və qərarlar qəbul edilir. Bu, müsbət hadisədir. Lakin unutmaq olmaz ki, tolerantlığın əmələ və həyat normasına çevrilməsi hər bir insanın mənsub olduğu dini-mənəvi dəyərlərdən, dünyagörüşündən, onların hüquq və azadlıqlarının müdafiəsindən asılıdır.

Sivilizasiyalararası dialoqda, beynəlxalq terrorizmin və ekstremizmin profilaktikasında tolerantlığın əhəmiyyəti müasir dünyada şikliklərin ümumi taleyimizlə bağlı olan problemlərlə uzlaşmasını, bu məsələlərin həllinə yönəlmiş qərarların qəbul edilməsində birgə məsuliyyət hissinin yaşanmasını ciddi tələbə çevirir.

Qəribdə bir paradoksla rastlaşdıq: informasiyalı cəmiyyət bizi bir-birimizə yaxınlaşdırsa da, qlobal təhlükələr qarşısında səylərimizi cəmləmək ehtiyacımızı duysaq da, dünya vahid universuma çevrilə bilmir, dözümsüzlüyün, intolerantlığın ifrat formaları olan dini, milli-etnik zəmində baş verən müharibələr, münaqişələr, terror aktları bəşəriyyəti qorxu içərisində saxlamaqda davam edir və insan haqları pozulur.

Dözümsüzlüyün, insan haqlarının pozulmasının qlobal problemə çevrilməsi günümüzün reallığıdır. Gələcək taleyimiz, ümumi səylərlə formalaşdıra biləcəyimiz, qlobal tolerantlıq paradiqmasından və onun həyata keçirilməsi mexanizmlərinin müəyyənləşdirməsindən, insan haqlarının əsaslı müdafiəsindən asılı olacaq. Əks-təqdir-tərzdə aydındır ki, hüquq və vəzifələrin dərki, insanın dünyagörüşü, onun əxlaqı ilə, bilavasitə bağlıdır və bunları bir-birindən təcrid edərək tətbiq etmək arzuolunmaz nəticələrə gətirib çıxarır.

Necə etmək olar ki, çoxluq və azlıq bir-birinin dini və dünyəvi dəyərlərinə hörmət etsin? Müasir demokratik cəmiyyətdə çoxluğun dəstəklədiyi dəyər və normaların təsbit olunması qəbul edilmişdir. Bununla belə, 1948-ci ildə qəbul olunmuş insan hüquqları Bəyannaməsinin 29-cu maddəsinin 2-ci bəndində qeyd olunur ki, insanın hüquqları mütləq olmayıb, başqalarının hüquqlarına hörmət və dözümdən irəli gələn bir sıra parametrlərlə hesablaşmalıdır, yəni tolerantlıq göstərilməlidir.

Beynəlxalq praktikada, bəzən belə bir vəziyyətlə də qarşılaşırıq ki, müəyyən qrup və ya azlıq öz hüquqlarını mütləqləşdirərək, xüsusilə də, beynəlxalq təşkilatlar vasitəsilə çoxluğa təzyiq göstərməyə cəhd edir. Belə hallar insan ciddi dərk olunur. Dünyanın demək olar ki, bütün ölkələrində tolerantlıq institutları təsis edilmişdir. Bu sahədə, ilk növbədə, intellektual, siyasi və dini elita təşəbbüs göstərmişdir. Azərbaycanda da tolerantlığın formalaşmasının təşəbbüskarı, subyekti qismində siyasi, dini, ziyalı elita çıxış etmişdir və edir. Ümummilli Lider Heydər Əliyev "Demokratik cəmiyyətdə terrorizm və ekstremizmlə mübarizədə dinin rolu"na həsr olunmuş beynəlxalq konfransdakı çıxışında qeyd edirdi. Məlumdur ki, yüksək tolerantlıq, ilk növbədə, yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılması erkən yaşlarından lazımdır.

Bu gün sivilizasiyaların keyfiyyət baxımından fərqli bir mərhələyə qədəm qoyması, faktiki olaraq, bütün individual və sosial səviyyədə köklü transformasiyaların mövcudluğu, düşüncə tərzində də əhəmiyyətli dəyişikliklərə səbəb olur. Zaman hər bir konkret dövlətdə və cəmiyyətdə həyata keçirilən dəyi-də, dünyanın ən qüdrətli dövlətlərinin nüfuzuna, beynəlxalq təşkilatların yeni təhlükəsizlik mühitini formalaşdırma cəhdinə, görkəmli elm və din xadimlərinin konfrantasiyadan dialoqa keçmək çağırışına, mədəniyyətlərin yaxınlaşması və bir-birindən bəhrələnmək istəyinə baxmayaraq, "mədəni oykumena" xəyal olaraq qalacaq. Bəlkə bunun əsas səbəbi minillikər boyu bəşəriyyətin ümumi taleyinin formalaşdığının hələ də tam ciddiliyi ilə dərk edilməməsidir?

Bəlkə, məhz indi hadisələrə yeni baxışın formalaşması və bəşəriyyətin özünü qlobal - tam kimi hiss etməsi dövrü başlayır.

Bəlkə, elə bu tarixi ehtiyacın nəticəsidir ki, mədəniyyətlərin və sivilizasiyaların qarşıdurması xofunu bəşəriyyətə yaşatmaq istəyən fikir mərkəzlərinin əksinə olaraq, bütün mədəniyyətlərdə etnikmilli və bəşəri qatların olduğunu təsdiq edən çağırışların sayı artır.

Ulu Öndərimiz yeni minilliyin yaşayacağı narahatçılığı əvvəlcədən görərək, gələcək nəsillərə xəbərdarlıq edirdi.

"Qloballaşan dünyada hamımız bir-birimizə yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi, məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, ona dəstək verərək, bütün insanların gələcəyi naminə, biz hamımız mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoqunda ümumi dil tapmalıyıq," bu, çox qiymətli bir tövsiyədir.

Qloballaşma prosesi təkcə suveren, demokratik dövlətlərin dünya birliyində cəmlənməsi, vahid bir iqtisadi sistemdə yaxınlaşması sivilizasiyalar arasında sərhədlərin silinməsi cəhdi deyil, bu, həm də dövlətlərin və millətlərin daha kiçik konstitusiyalarda fraqmentləşməsidir. Milli mədəniyyətlərin özünütəsdiq və özünümüdafiə hissinin güclənməsi milli kimlik probleminin insan haqlarının müdafiəsinin kəskinləşməsidir. Dünyəvi və yaxud demokratik dəyər adı altında hər hansı xalqın sivilizasiyasının dəyərlərini bütün dünyaya qəbul etdirmək cəhdinə qarşı yaranan təbii reaksiyasının törətdiyi təhlükənin artmasıdır.

Müasir dünyada insanlar bir qloballaşma zamanında, lakin çeşidli tolerantlıq məkanlarında yaşayırlar. Belə bir şəraitdə onların hüquqları etibarlı şəkildə qorunur. Hər bir insan dünyaya gələndə hansısa millətə, xalqa və etnosa mənsubluq hissi daşıyır. Bu özünəməxsusluq hissi ilə səciyyələnən, milli kimliyi ifadə edən mənəvi dəyər xalqın toxunulmaz sərvətidir. Demokratik prinsiplərlə yaşamaq, bu yönümdə inkişaf etmək arzusunda olan hər bir dövlət öz ölkəsində cəmiyyətdaxili tolerantlığın bərqərar olmasını təmin etməlidir. Bu, regionda, sonda isə bütün dünyada tolerant durumun formalaşmasına olan xidmətidir. Yalnız bu durumda insan hüquqları və azadlıqları da universal tolerant dəyər kimi mövcud ola bilər.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 3 oktyabr



## Yeni Azərbaycan Partiyası seçki qərargahının Pirallahı rayon şöbəsinin iclası keçirilib

Dünən Yeni Azərbaycan Partiyası seçki qərargahının Pirallahı rayon şöbəsinin iclası keçirilib. İclası giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası seçki qərargahının Pirallahı rayon şöbəsinin sədri Hikmət Şikarov 2019-cu ilin dekabr ayında keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının seçki qərargahının Pirallahı rayon şöbəsinin Fəaliyyət Proqramına uyğun olaraq, ilkin mərhələdə görüləcək işlər barədə məlumat verdi. O, YAP üzvü olan bələdiyyə üzvlərinin təhlilinin aparılması və onların arasından gələcək namizədlərin müəyyən edilməsi ilə bağlı tövsiyələrini verdi. Hikmət Şikarov ərazinin sosial-iqtisadi problemlərinin və əhalinin xüsusiyyətlərinin öyrənilməsi - əhalinin məşğulluğu, seçki məntəqələrinin ərazisində problemlərin (qaz, su, enerji, nəqliyyat və s.) mövcudluğu, seçki məntəqələrinin ərazisində yaşayan seçicilər arasında nüfuzlu şəxslərin (ağsaqqalların, din xadimlərinin, tanınmış mədəniyyət, incəsənət və elm xadimlərinin) müəyyənləşdirilməsi ilə bağlı tapşırıqlarını verdi.

Yeni Azərbaycan Partiyası seçki qərargahının Pirallahı rayon şöbəsinin üzvü Daməd İmanov çıxış edərək, seçici siyahılarının dəqiqləşdirilməsi istiqamətində görülən işlərin növbəti iclasda müzakirə olunması barədə təklif verdi.

Yeni Azərbaycan Partiyası seçki qərargahının Pirallahı rayon şöbəsinin üzvü Əli Kərimov seçki məntəqələrinin seçkiyə hazırlıq vəziyyətlərinin araşdırılması ilə bağlı monitorinqin keçirilməsini təklif etdi.

İclasın sonunda Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı fəallarının işinin təşkil edilməsi və koordinasiyası ilə bağlı qərar qəbul edildi.

*Rövşən*

## "Çex bülbülü" 80 yaşında vəfat etdi

Oktyabrın 2-də çex estradasının əfsanəvi müğənnisi Karel Qotun ürəyi dayanıb. AZƏRTAC xəbər verir ki, ifaçı ömrünün 80-ci ilində Praqada öz evində doğmalarının əhatəsində dünyasını dəyişib. K.Qot uzun illərdir onun limfa sistemini sıradan çıxarmış leykemiya xəstəliyindən əziyyət çəkirdi. Dünya şöhrətli Karel Qotu "çex bülbülü" adlandırırdılar. Yaradıcılığı boyu 1000-dən çox mahnı ifa etmiş müğənninin bütün dünyada təqribən 30 milyon diski satılıb.

# Gənclər Yeni Azərbaycan Partiyası ətrafında sıx birləşirlər

### YAP Binəqədi rayon təşkilatında partiyaya üzv olmaq istəyən gənclərlə görüş keçirilib





***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında partiyaya üzv olmaq üçün müraciət edən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbələri ilə görüş keçirilib. Görüşü giriş sözü ilə açan Ramiz Göyüşov YAP-ın tarixi zərurətdən yaranan siyasi bir partiya olduğunu, partiyanın Ümummilli Lideri Heydər Əliyevə xalqın böyük inam və etimadının nəticəsi olaraq, yaradıldığını söyləyib.***

YAP-ın strukturu, fəaliyyəti və yaradıldığı vaxtdan, ötən müddət ərzində qazandığı uğurlardan danışan R.Göyüşov onu da qeyd edib ki, gənclər YAP-ın üzvü olmaqla, bütövlükdə Azərbaycan cəmiyyətinin inkişafı prosesində iştiraklarına əhəmiyyətli bir təminat əldə etmiş olur, ölkəmizdə həyata keçirilən işlərə öz töhfələrini vermək imkanı qazanırlar.

R.Göyüşov qazanılan uğurlarla yanaşı, gənclərin qarşısında bir sıra vəzifələrin dayandığını da diqqətə çatdırıb. Onun sözlərinə görə, ən böyük vəzifələrdən biri ölkənin ictimai-siyasi həyatında yaxından iştirakı fəal şəkildə davam etdirməkdir. Görüşdə partiyaya üzv olmaq üçün müraciət etmiş gənclərlə tək-tək söhbət aparılıb. Onlar özləri haqqında məlumat verərək, YAP-ın fəaliyyəti, dövlət başçısı İlham Əliyevin uğurlu siyasəti və bir sıra məsələlərlə bağlı fikirlər və təkliflərini səsləndiriblər. YAP-a üzv olmağın onlar üçün böyük fəxr olduğunu və bu adı şərəflə daşıyacaqlarını bildiriblər.

***ZÜMRÜD***

# Suraxanı rayonunda ahıl insanlar ziyarət olunub



Suraxanı rayon icra hakimiyyətinin təşkilatçılığı və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu Suraxanı rayon şöbəsinin dəstəyi ilə rayon ərazisində yaşayan bir qrup ahıl insanlar ziyarət olunub. Ziyarətdə Suraxanı rayon icra hakimiyyəti başçısının müavini Afət Həsənova, Dövlət Sosial Müdafiə Fondunun Suraxanı rayon şöbəsinin müdiri Elgüc Kələntərli, əlamətdar bayram münasibətilə ahılları təbrik edərək, onların gündəlik qayğıları və problemləri ilə maraqlanıblar.

Ahıllar görüşün əhəmiyyətindən danışaraq, belə bir gündə ziyarət edildikləri üçün sevincli olduqlarını bildiriblər. İşlədikləri illərlə bağlı öz xatirələrini bölüşən ahıllar Vətənə və xalqa xidmət etməyin ən şərəfli peşə olduğunu bildiriblər.

Səmimi söhbət zamanı A.Həsənova vurğulayıb ki, Suraxanı icra hakimiyyəti sosial-iqtisadi inkişafla bağlı, davamlı olaraq, müxtəlif lahiyələr həyata keçirir. Belə faliyyətlərdən biri də xüsusi qayğıya ehtiyacı olan insanların, o cümlədən ahılların və tənhaların daim diqqətdə saxlanması, onların qarşılaşdıqları problemlərin həllidir. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb. Prezident İlham Əliyev tərəfindən ahıllara diqqət, qayğı və onların sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə çoxlu sayda sərəncamlar imzalanıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da ahılların ən böyük qayğıkeşidir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ahıllar və müharibə veteranları ilə görüşlər keçirilir. Onların sağlamlıqları diqqətdə saxlanılır. Ziyarət olunan şəxslər göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Ziyarət edilən hər bir ahıla ərzaq yardımı təqdim edilib.

***ZÜMRÜD BAYRAMOVA***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**